

## Azərbaycanda mövcud olan sosial ədalət dünya üçün modeldir

7

# "Onlar bundan nəticə çıxarmalıdırlar"

2



Səs
№ 032 (6473) 19 fevral 2022-ci il. Qiymәti 60 qәpik

# Ən uca zirvələrə layiq Lider Xanım!

4



3



## Hulusi Akar: "Azərbaycanın haqq işini dəstəkləməyə davam edirik"

Azərbaycan, Liviya kimi dost və qardaş ölkələrdəki dost və qardaşlarımızın haqq işinə bacardığımız qədər dəstəyimizi davam etdiririk. SİA-nın məlumatına görə bunu, Türkiyənin...

## Həyatımızı məhv edən "üç ağ zəhər"...




8



## Ambisiyası Makronu Avropanın yeni lideri edə biləcəkmi?



## Rusiyalı hərbi ekspert: "Qarabağdakı ermənilərin heç bir qərar vermək səlahiyyəti yoxdur"

3

Hərbi ekspert, Plexanov adına Rusiya İqtisadiyyat Universitetinin Politologiya və Sosiologiya kafedrasının...




## "Vətəndaşlarımız yaxın vaxtlarda öz ata-baba yurdlarına qayıdacaqlar"

7

"Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Qəhrəman Azərbaycan...



# “Onlar bundan nəticə çıxarmalıdırlar”

## İLHAM ƏLİYEV: “Hər bir dövlət məmuru Prezident başda olmaq şərti ilə xalqın xidmətçisidir”

Ulu öndər Heydər Əliyevin siyasi xəttinin və onun nümunəvi dövlət xadimi kimi fəaliyyətinin layiqli davamçısı olan Prezident İlham Əliyev bu gün nəinki məmurlara, bütövlükdə Azərbaycan gəncliyinə və hər bir vətəndaşa örnəkdir. Hər bir kəs miqyasından asılı olmayaraq, gördüyü işə məsuliyyətlə, vicdanla yanaşmaqla həm cəmiyyətə fayda verir, həm də ölkəsinin inkişafında az da olsa pay sahibi olur. Elə peşələr də vardır ki, onlar birbaşa olaraq, sahibinin üzərinə xalqa, dövlətə xidmət məsuliyyətini qoyur. Xüsusən də, məmur peşəsi bu missiyanı üzərinə götürən insanda vətənpərvərlik, peşəkarlıq, təvazökarlıq, məsuliyyət və digər bu kimi keyfiyyətlərin olmasını tələb edir.

Dövlət başçısı, xüsusilə, məmurları vəzifələrə təyin edərkən onlarla görüşlər zamanı əsas xəbərdarlığı neqativ məsələlərlə bağlı olur. Çünki dövlət məmurlarının vəzifə borclarını layiqincə yerinə yetirməsi Prezident İlham Əliyevin daim diqqət yetirdiyi məsələlərdəndir. Ölkə başçısı dəfələrlə öz nitqlərində layiqli məmuru səciyyələndirən keyfiyyətləri xarakterizə edərək, fəaliyyətində ciddi nöqsanlara yol verən şəxsləri törətdikləri əməllərdən çəkinməyə çağırıb, kimlər nəticə çıxarmırsa, onlar cəzalanırlar.

### PREZİDENTDƏN MƏMURLARA NÖVBƏTİ XƏBƏRDARLIĞI DÖVLƏT SİYASƏTİNİN ƏSASINDA AZƏRBAYCAN VƏTƏNDAŞI DAYANDIĞININ TƏSDİQİDİR

Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Coşqun Cəbrayılovu Bakı şəhəri Nizami rayon İcra Hakimiyyətinin başçısı, Elgin Həbibullayevi Bakı şəhəri Nərimanov rayon İcra Hakimiyyətinin başçısı və Elxan İbrahimovu Kürdəmir rayon İcra Hakimiyyətinin başçısı təyin olunmaları ilə əlaqədar videoformatda qəbul edən zaman bir daha bildirib.

Prezident qeyd edib ki, hər bir dövlət məmuru Prezident başda olmaq şərti ilə xalqın xidmətçisidir: ”Bildiyiniz kimi, bir çox icra başçıları cinayət məsuliyyətinə cəlb olunub, artıq bir çoxu məhkum edilib və bəzilərinin cinayət işlərinin istintaqı davam edir”,-vurğulayaraq bildirib ki, siz daim insanlarla təmasda olmalısınız, onların problemlərini onlardan eşitməlisiniz, laqeyd olmamalısınız: ”Yəni, bütün məmurlar qarşısında mənim tərəfimdən qoyulan vəzifələr bundan ibarətdir. Çünki hər bir dövlət məmuru Prezident başda olmaq şərti ilə xalqın xidmətçisidir. Mən bunu dəfələrlə öz çıxışlarımda demişəm və icra başçılarını vəzifəyə təyin edərkən demişəm. Ancaq əfsuslar olsun ki, bəzi hallarda mənim təyin etdiyim vəzifəli şəxslər öz vəzifə borcunu yerinə yetirmək əvəzinə qanunsuz işlərlə məşğul idi, korrupsiya ilə, rüşvətxorluqla məşğul idi. Kasıb insanların malına göz dikmişdilər, dövlət tərəfindən ictimai işlərə cəlb edilən insanların maaşını mənimsəmişdilər. Bu vicdansızlıq və əxlaqsızlıq nəticəsiz qalmadı. Bildiyiniz kimi, bir çox icra başçıları cinayət məsuliyyətinə cəlb olunub, artıq bir çoxu məhkum edilib və bəzilərinin cinayət işlərinin istintaqı davam edir”.

### ”PREZİDENT KİMİ HƏMİŞƏ SAHİBKARLARA DƏSTƏK OLMUŞAM”

Dövlət başçısı son vaxtlar özəl sektorun inkişafı nəticəsində daha böyük uğurlara nail olunduğunu deyib: ”Son vaxtlar özəl sektorun inkişafı nəticəsində biz daha böyük uğurlara nail olmuşuq. Bu sahə deyə bilərəm ki, ilk günlərdən mənim Prezident kimi fəaliyyətimdə önəmli yer tuturdu və məhz bunun nəticəsində biz ümumi daxili məhsulumuzun əsasını, əksər hissəsini indi özəl sektor tərəfindən, qeyri-neft sektoru tərəfindən təmin edirik”.

Azərbaycan Prezidenti onu da bildirib ki, indiki şəraitdə, xüsusilə postmüharibə dövründə özəl sektorun üzərinə daha böyük vəzifələr düşür: ”Əlbəttə ki, ilk növbədə, onlar azad edilmiş torpaqlara fikir verməlidirlər və orada öz işlərini qurmalıdırlar. Bu məsələ ilə bağlı mən artıq dəfələrlə öz fikirlərimi demişəm və eyni zamanda, fəaliyyət göstərdikləri bütün bölgələrdə fəal olmalıdırlar. Bu fəallığı dövlət təmin edir. Mən Prezident kimi həmişə sahibkarlara dəstək olmuşam həm mənəvi cəhətdən, həm də yaradılmış infrastruktur, güzəştli şərtlərlə verilmiş kreditlər və digər addımlar atılmışdır. Yerlərdə isə onlara elə şərait yaradılmalıdır ki, onlar həvəslə investisiya qoysunlar, iş yerləri yaratsınlar. Bir sözlə, onlara maneçilik törətmək yox, əksinə, kömək göstərmək lazımdır. Özəl sektorun inkişafı ümumi iqtisadi siyasətimizin istiqamətlərini nəzərə almalıdır” - Prezident vurğulayıb.

### “BİZ İNDİ NADİR ÖLKƏLƏRDƏNİK Kİ, HEÇ KİMDƏN ASILI DEYİLİK, İQTİSADİ CƏHƏTDƏN TAMAMİLƏ MÜSTƏQİLİK, HEÇ BİR KREDİTƏ EHTİYACIMIZ YOXDUR”

”Biz indi dünyada nadir ölkələrdənik ki, heç kimdən asılı deyilik, iqtisadi cəhətdən tamamilə müstəqilik, heç bir kreditə ehtiyacımız yoxdur”,-deyən dövlət başçısı söyləyib ki, böyük uğurlara nail olmuş ölkə qarşısında problemlər kifayət qədər çoxdur və yerlərdəki bu problemin həlli böyük dərəcədə məmurlardan asılıdır: ”Bir sözlə, baxmayaraq ki, biz böyük uğurlara nail olmuşuq, ölkə qarşısında problemlər kifayət qədər çoxdur və yerlərdəki bu problemlərin həlli böyük dərəcədə məmurlardan asılıdır. Çünki dövlət və hökumət öz üzərinə nə düşürsə, onu edir. Eyni zamanda, qanunvericilik orqanımız - Milli Məclis qanunlar qəbul edir. Prezident sərəncamlar imzalayır, dövlət proqramları qəbul edilir. Hökumət gündəlik fəaliyyətdə islahatların dərinləşməsi ilə bağlı addımlar atır. Yəni, bütün lazımi tədbirlər görülür. Bundan əlavə, bizim uğurlu siyasətimiz nəticəsində əldə edilmiş maliyyə resursları buna imkan verir. Biz indi dünyada nadir ölkələrdənik ki, heç kimdən asılı deyilik, iqtisadi cəhətdən tamamilə müstəqilik, heç bir kreditə ehtiyacımız yoxdur. Əksinə, mən göstəriş vermişəm ki, xarici dövlət borcumuz ildən-ilə azalsın və keçən ilin nəticələrinə görə, ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Mən göstəriş vermişdim ki, onu 15, 12, 10 faizə endirək. Yəni, bizim qarşımızda indi maliyyə problemlərimiz yoxdur desəm, səhv olar. Ancaq, eyni zamanda, bütün bu işləri özümüz görürük. O cümlədən Qarabağı və Zəngəzuru dirçəltmək üçün heç kimdən bir manat yardım, yaxud da ki, kredit almamışıq. Yəni, bu, onu deməyə əsas verir ki, sadəcə olaraq, yerlərdə işlər düzgün təşkil olunduqda problemlər də öz həllini tapacaq”.

### ”İCRA BAŞÇISI BÜTÜN KƏNDLƏRƏ GETMƏLİDİR, İNSANLARLA GÖRÜŞMƏLİDİR”

”Kürdəmir rayonunun kəndlərində mövcud olan problemlər təhlil edilməlidir. İcra başçısı bütün kəndlərə getməlidir, insanlarla görüşməlidir. Əgər hər bir kəndin problemi həll olunarsa, onda demək olar ki, bütün problemlər həll olunar”.

Bunu Prezident İlham Əliyev təyin etdiyi rayon icra hakimiyyətinin başçıları ilə görüşündə deyib. Dövlət başçısı bildirib ki, o cümlədən Nizami və Nərimanov rayonlarının bütün guşələrində işlər elə getməlidir ki, bu rayonlar nümunəvi olsun: ”Yerlərdə həlli mümkün olmayan problemlərin, - elə problemlər təbii ki, var, - həlli üçün siz mərkəzi icra orqanlarına müraciət etməlisiniz, həlli mümkün olan problemləri isə özünüz həll etməlisiniz ki, insanlar sizdən razı olsun. İnsanlar sizdən razı olsalar, mən də sizin işinizdən razı olacağam. Bir daha demək istəyirəm ki, sizə böyük etimad göstərilir. Bu təyinatı mən ictimaiyyət üçün açıq edirəm ki, hər kəs bir daha görsün mənim tövsiyələrimi və sizin məsuliyyətinizi. Sizə uğurlar diləyirəm”.

### “BAKI ŞƏHƏRİ GÖRDÜYÜMÜZ İŞLƏR NƏTİCƏSİNDƏ DÜNYANIN ƏN GÖZƏL ŞƏHƏRLƏRİNİN BİRİNƏ ÇEVRİLİB”

Azərbaycan Prezidenti görüşü zamanı vurğulayıb ki, bölgələrdə canlanma və inkişaf imkan verdi ki, Azərbaycanın bütün bölgələrində genişmiqyaslı işlər aparılsın. Amma bu günə qədər mövcud olan problemlər də var, o cümlədən Bakı şəhərində. Dövlət başçısı deyib ki, baxmayaraq ki, Bakı şəhəri gördüyümüz işlər nəticəsində dünyanın ən gözəl şəhərlərinin birinə çevrilib: ”Bakıya gələn qonaqlar və əlbəttə ki, yerli sakinlər bunu məmnunluqla qeyd edirlər. Ancaq əgər biz desək ki, Bakının bütün problemləri həll edilib, əlbəttə ki, səhv edərik. Bakı doğrudan da dünyanın ən gözəl şəhərlərindən biridir. Ancaq Bakının bütün yerləri heç də bu meyarlara cavab vermir. Ona görə xüsusilə inkişafa yönəlmiş addımlar Bakının hər bir guşəsində atılmalıdır. İnsanları narahat edən problemlərin həlli həm Bakıda, həm bölgələrdə ön planda olmalıdır”.

”Bu, təkcə icra hakimiyyəti başçılarına aid deyil, bütün məmurlara aiddir. Heç kim qanundan yuxarı ola bilməz. Qanun qarşısında hamı bərabərdir”,-deyən dövlət başçısı bildirib ki, dövlət məmurunun üzərinə düşən vəzifə və məsuliyyət onları dediyim prinsiplərə riayət etmələrinə sövq etməlidir: ”Əks təqdirdə onlar cəzalandırılacaq və artıq gördüyümüz işlər bunu təsdiqləyir. Böyük vəzifə böyük imtiyaz deyil, böyük məsuliyyətdir. Ona görə bu məsuliyyəti dərk edərkən siz öz addımlarınızı da bu istiqamətdə atmalısınız. Kadr sahəsində kadrların düzgün seçilməsi böyük dərəcədə işlərin uğurla getməsinə şərait yaradacaq. Ona görə kadrların seçilməsində, ilk növbədə, insanların iş qabiliyyəti nəzərə alınmalıdır, dövlətçiliyə, dövlətə sədaqət nəzərə alınmalıdır, vətənpərvərlik nəzərə alınmalıdır. Tanışlıq, qohumluq əlaqələri və hansısa başqa prinsiplər tamamilə aradan qaldırılmalıdır. Elə kadrlar seçilməlidir ki, bu kadrlar dövlət məmurları qarşısında duran vəzifələri şərəflə yerinə yetirsinlər. Eyni zamanda, qeyd etdiyim kimi, vətənpərvər insanlar, dövlətə, xalqa bağlı olan insanlar, əlbəttə ki, ön plana çıxmalıdır və kadr təyinatları aparılanda bu, nəzərə alınmalıdır”.

Göründüyü kimi, dövlət başçısının bu sözləri məmurların necə işləməli olduqlarını aydın dərk etmələri üçün Heydər Əliyev irsini öyrənməklə yanaşı, xalqın etimadı sayəsində 2003-cü ildən bəri Azərbaycan dövlətinin başçısı kimi fəaliyyət göstərən Prezident İlham Əliyevin idarəçiliyindən örnək almalıdırlar. Çünki özünün iradəsi, bilik və bacarıqları, Vətənə, xalqa sədaqəti, yorulmaz əməyi, çalışqanlığı ilə Prezident İlham Əliyev xalqın ona həvalə etdiyi ən məsul və ağır işin öhdəsindən uğurla gəlir və bu gün görülən işlərin nəticəsi bir daha bunu təsdiq edir. Bir sözlə, zaman göstərdi ki, Prezidentin siyasətinin mərkəzində vətəndaşların rifahı dayanır. Məhz hər bir dövlət məmuru xalqın xidmətçisidir və onlar bundan nəticə çıxarmalıdırlar.

***RƏFİQƏ KAMALQIZI***







# Yaponiya mediası Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdama səfərindən yazır

**Yaponiyanın ”ajmedia.jp” saytı Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Ağdam rayonuna növbəti səfərləri barədə məlumatlar yayıb.**

AZƏRTAC-a istinadla yayılan məlumatlarda Azərbaycanın dövlət başçısına və birinci xanıma Ağdamda bir neçə yeni yarımstansiyanın açılışında iştirak etmələri, yeni sosial əhəmiyyətli obyektlərin təməlini qoymaları, Ağdam Cümə məscidi və Qarabağ xanlarının türbələri və yaşayış evi - İmarət kompleksində planlaşdırılan işlərlə tanış olmaları öz əksini tapıb.




Yapon oxuculara Qarabağ xanlarının türbələri və yaşayış evi - İmarət kompleksi haqda məlumat verilərək bildirilib ki, XVIII əsrə aid və iki binadan ibarət olan bu tarix-memarlıq abidəsi xan nəslinin ilk mülklərindəndir. Saray Azərbaycan ərazisində yayılmış digər xan saraylarından fərqlənərək dəbdəbəli yaşayış evi xüsusiyyəti daşıyıb. Buna görə də, bu tikili Pənahəli xanın imarəti də adlandırılıb.

Məlumatlarda vurğulanıb ki, işğal edilən ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb, buradan tövlə kimi istifadə olunub.

Materiallarda diqqətə çatdırılıb ki, Xan sarayının yaxınlığında yerləşən və Qarabağ xan nəslinin bir çox nümayəndələrinin dəfn edildiyi İmarət qəbiristanlığı da erməni vəhşiliyinə məruz qalaraq dağıdılıb.

## Hulusi Akar: “Azərbaycanın haqq işini dəstəkləməyə davam edirik”

Azərbaycan, Liviya kimi dost və qardaş ölkələrdəki dost və qardaşlarımızın haqq işinə bacardığımız qədər dəstəyimizi davam etdiririk. SİA-nın məlumatına görə bunu, Türkiyənin milli müda-



fiə naziri Hulusi Akar NATO müdafiə nazirlərinin iclasından sonra türk jurnalistlərə açıqlamasında deyib. O qeyd edib ki, Türkiyə Silahlı Qüvvələri bir tərəfdən sərhəd təhlükəsizliyi, digər tərəfdən isə terrorla mübarizə sahəsində fəaliyyətini qətiyyətlə davam etdirir.

”Bundan əlavə, Azərbaycan, Liviya kimi dost və qardaş ölkələrdəki dost və qardaşlarımızın haqq işinə bacardığımız qədər dəstəyimizi davam etdiririk. Region olaraq həssas və kritik bir dövrdən keçirik. Belə bir dövrdə iki gün ərzində NATO-nun Müdafiə Nazirləri Toplantısı keçirilib. İclasda başda Ukrayna olmaqla, alyansın gündəmində olan müdafiə və çəkindirmə məsələləri müzakirə edilib, həm regional, həm də qlobal inkişaflar dəyərləndirilib”, - deyə o əlavə edib.

# Rusiyalı hərbi ekspert: “Qarabağdakı ermənilərin heç bir qərar vermək səlahiyyəti yoxdur”

**Hərbi ekspert, Plexanov adına Rusiya İqtisadiyyat Universitetinin Politologiya və Sosiologiya kafedrasının dosenti, ”Rusiya Zabitləri” Ekspert Şurasının üzvü Aleksandr Perendjiyev ”Moskva-Baku” portalına şərhində Qarabağdakı erməni seperatçılarının əməlləri ilə bağlı fikirlərini bildirib. SİA ekspertin fikirlərini oxucularına təqdim edir.**

- Sual yaranır ki, Qarabağda yaşayan bu insanların hansısa ”işğaldan” danışmağa haqqı varmı, hansısa ”qanun” qəbul edə bilərmi? Prinsipcə, bu insanların legitimliyi, qanuniliyi varmı? Bu ”DQR”-in qərar qəbulu məsələsində subyektivliyi varmı? Axı ərazilərin işğalı Ermənistan tərəfindən edilmişdi, üstəlik, bu, Azərbaycan əraziləri idi. Rusiya-Azərbaycan-Ermənistan formatı var. Baş nazirin müavinləri səviyyəsində komissiya var. He-



sab edirəm ki, üçtərəfli formatda danışıqlar çərçivəsində bu qalan ərazi ətrafında vəziyyətə aydın siyasi qiymət verilməlidir. Və beləliklə, vəziyyət qeyri-müəyyən qalır və özünü ”dövlət” adlandırılan əraziyə əslində heç kimin onları çağıra bilməyəcəyi adamlar nəzarət edir. Ona görə də hüquqi cəhətdən Rusiya, Azərbaycan və Ermənistan Qarabağdakı ”müvəqqəti yerli rəhbərlik”lə bağlı qərar qəbul etməlidir.

Məlumdur ki, sülhməramlıların vəzifəsi separatçılara qarşı döyüşmək deyil, bu onların mandatı deyil. Onların mandatı hərbi əməliyyatların yenidən başlanmasının qarşısını almaqdır. Qalan məsələləri isə siyasətçilər həll edir.

9 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata əsasən, Ermənistan silahlı birləşmələri Qarabağdan çıxarılmalıdır. Bu sənədləşdirilmişdir. Ona görə də bu gün üçtərəfli siyasi proses baxımından qiymət verilməlidir. Üçtərəfli danışıqlar prosesi çərçivəsində bu şəxslərin Qarabağdakı hərəkətlərinə dəqiq qiymət verilməyənə qədər, onlar özləri haqqında nə isə açıqlayacaqlar.

Açıqca qeyd etmək lazımdır ki, bu ”kişilərin” heç bir subyektivliyi yoxdur. Və Dağlıq Qarabağın sakinlərinin, etnik ermənilərin statusu müəyyən edilib, bu ərazilərin statusu müəyyən edilib. Burada bir qüsur var. Bir tərəfdən beynəlxalq hüquq nöqteyi-nəzərindən məlumdur ki, bura Azərbaycan ərazisidir, digər tərəfdən Azərbaycanın nəzarəti altında deyil. Azərbaycan bu problemi üçtərəfli danışıqların gündəliyinə salmalıdır, o cümlədən bu ərazilərə bir növ neytral status verə bilər. Bu, revanşist motivlərlə həm Azərbaycan Silahlı Qüvvələrinə, həm də mülki şəxslərə hücuma cəhd edən silahlı şəxslərin bu ərazidə qalmasından daha yaxşıdır. Aydındır ki, bunda yaxşı heç nə yoxdur. Bu baxımdan, Rusiya buradakı hər şeyi qeyd etməlidir.

*Tərcümə - Elçin Bayramlı*

# Ən uca zirvələrə layiq Lider Xanım!



## OZ ƏMƏLLƏRI ILƏ XALQIMIZIN DƏRİN ETİMADINI QAZANMIŞ BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN XANIM ƏLİYEVANIN ÖTƏN İLLƏRDƏ HƏYATA KEÇİRDİYİ FƏALİYYƏT, GÖRDÜYÜ İŞLƏR ƏN GÖZƏL NÜMUNƏLƏRDİR

2017-si il fevral ayının 21-də Prezident İlham Əliyev Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti təyin olunması onun Vətən və xalq naminə göstərdiyi ardıcıl fəaliyyətə verilən yüksək qiymət idi. Mehriban xanım Əliyeva yeni təyinatadək ona həvalə olunan bütün vəzifələrin öhdəsindən layiqincə gələrək özünün yüksək təşkilatçılıq qabiliyyətini nümayiş etdirmişdi. Yeni təyinatadək Azərbaycan ictimaiyyəti Mehriban xanım Əliyevanın Bakının ev sahibliyi etdiyi "Eurovision-2012" mahnı yarışmasını, tarixdə ilk dəfə keçirilən Birinci Avropa Oyunlarını təşkil edən peşəkar komandanın rəhbəri kimi necə böyük əzmkarlıq, iradə, təşkilatçılıq, ətrafındakıları gələcək uğurlara inandırmaq bacarığı nümayiş etdirdiyinin şahidi olmuşdu. Bəhs olunan mötəbər tədbirlərdə Azərbaycan yeni yüksək standartlar nümayiş etdirdi, özünü güclü, hər şeyə qadir olan dövlət kimi göstərdi ki, burada Mehriban xanım Əliyevanın xidmətləri müqayisəyə gəlməzdir.

## SƏMƏRƏLİ FƏALİYYƏT, YORULMAZ MİSSİYA

Bu bir tarixi həqiqətdir ki, vətəni, xalqı üçün çalışan, təmənnasız xeyirxahlığı, humanistliyi həyat amalına çevirən şəxslərin ideyaları, xoş əməlləri gələcək nəsillər üçün nümunəyə çevrilir. Keçdiyi mənalı ömür yolu, yüksək humanizmi, xeyirxahlığı və nəcibliyi, bənzərsiz ictimai fəaliyyəti ilə nəinki Azərbaycanda, eləcə də dünyada yüksək ehtiram sahibi olan ölkəmizin birinci xanımı, Birinci vitse-prezident Mehriban Əliyeva tariximizin şanlı salnaməsinə öz dəstxətti ilə daxil olan belə şəxsiyyətlərdəndir. Xeyirxah əməlləri ilə xalqının sevimlisinə çevrilən Heydər Əliyev Fondunun rəhbəri Azərbaycan qadınına xas olan ən gözəl xüsusiyyətləri özündə cəmləşdirən nəciblik missiyasını şərəflə yerinə yetirir. Mehriban xanım Əliyeva xeyriyyəçilik fəaliyyəti ilə Azərbaycanda bu sahədə sosial-fəlsəfi təməl yaratmaqla yanaşı, gələcək nəsillərə nəcib bir yolun əsas konturlarını göstərməkdədir. Prezident İlham Əliyevin dövlətçilik ideyalarından güc alan Mehriban xanım Əliyevanın humanizm və insanpərvərlik ideallarını rəhbər tutaraq reallaşdırdığı genişmiqyaslı layihələr onu xalqın sevimlisinə çevirib.

Əlbəttə ki, bu xeyirxahlıqdan, nəcib əməllərdən, sosial layihələrdən danışarkən Mehriban Əliyevanın 2004-cü ildən bəri rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd etməmək mümkün deyil. Artıq 18 ildir ki, əsasında mərhəmət, şəfqət, xeyirxahlıq kimi ali dəyərlər dayanan Heydər Əliyev Fondu öz prinsiplərinə sadiq qalaraq, təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirir. Ümumiyyətlə, Mehriban xanım Əliyevanın ictimai-siyasi fəaliyyətinə diqqət yetirsək bu kimi əhəmiyyətli məqama layiq olan şəxs məhz Mehriban xanım Əliyevadır. Çünki O, fəaliyyəti müddətində gördüyü bütün işləri ilə, reallaşdırdığı nəhəng layihələri ilə həmin məqamı kifayət qədər təsdiqləmiş olur.

Bu gün tam əminliklə deyə bilərik ki, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ulu öndərin ideyalarını böyük əzmlə və sədaqətlə həyata keçirir. Fond ölkənin yaradıcı və elmi potensialının artırılmasına kömək etməyi, uşaq müəssisələrinin infrastrukturlarını inkişaf etdirməyi, ekologiya sahəsində mühüm tədqiqatları dəstəkləməyi, sağlam həyat tərzini təbliğ etməyi, Azərbaycan Respublikasının ərazisində və xaricdə aktual mövzulara dair konfrans və seminarlar, eləcə də uşaqların, yaradıcı gənclərin, incəsənət xadimlərinin sərgilərini təşkil etməyi, dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək verməyi öz fəaliyyətində prioritet məsələlər kimi görür. Bir sözlə, Heydər Əliyev Fondunun fəaliyyəti ölkənin ictimai həyatının bütün sahələrini əhatə edir. O cümlədən Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətindən bəhs edərkən onu da vurğulamaq lazımdır ki, Fond, eyni zamanda, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, ölkəmizin üzləşdiyi təcavüzkarlıq faktının ifşası istiqamətində məqsədyönlü və ardıcıl iş aparır. Fondun dəstəyilə artıq uzun illərdir ki, müxtəlif ölkələrdə Xocalı faciəsinə həsr olunmuş konfranslar, tədbirlər keçirilir, bu istiqamətdə xüsusi təbliğat aparılır. Aksiyalarda ermənilərin Xocalıda törətdikləri vəhşilikləri əks etdirən fotoşəkillər, müxtəlif illərdə xarici ölkələrin nüfuzlu nəşrlərində Xocalı faciəsi haqqında dərc edilmiş materiallar, "Qarabağ həqiqətləri" adlı bukletlər və "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması" kitabı təqdim olunur. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə yaradılan "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu istiqamətdə atılan ən önəmli addımlardandır. Təsadüfi deyil ki, məhz bu kampaniyaya start veriləndən sonra bir sıra ölkələrin parlamentləri Xocalı soyqırımının tanınması ilə bağlı qərarlar qəbul edib, ayrı-ayrı dövlətlərdə Xocalı soyqırımı abidələri qoyulub.Ölkəmizin inkişafında təhsilin misilsiz əhəmiyyəti olduğunu nəzərə alan Heydər Əliyev Fondu bir neçə iri miqyaslı layihələr hazırlayaraq həyata keçirmişdir.

*Ardı Səh. 5*

# Ən uca zirvələrə layiq Lider Xanım!

Əvvəli Səh.4

Bu baxımdan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı xüsusi əhəmiyyət kəsb edir. Müəllifi Mehriban xanım Əliyevanın olduğu bu proqramda respublikamızın rayon və şəhərlərində yeni məktəb binalarının tikilib istifadəyə verilməsi, təhsil ocaqlarının əsaslı təmiri, maddi-texniki bazasının yaxşılaşdırılması, təhsilin keyfiyyətinin qaldırılması əsas məsələlər sırasındadır. Təkcə 2005-2007-ci illərdə 60-dan çox rayonda 200 məktəb binası tikilmişdir. Respublikada uşaq evlərinin və internatların əsaslı şəkildə yenidən qurulmasına dair "Uşaq evlərinin və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində 29 uşaq müəssisəsi əsaslı şəkildə təmir edilmiş, əlavə yardımçı binalar tikilmiş, təzə avadanlıqlarla təmin olunmuşdur. Son illərə qədər ölkəmizin bütün regionlarında təhsil sistemindəki əsas problemlər Mehriban xanımın qayğısı və diqqəti nəticəsində artıq öz həllini tapmışdır. Ümumiyyətlə, belə bir münasibət ölkəmizin pedaqoji kollektivlərini, bütün müəllimləri, tərbiyəçiləri saf əqidəli, dərin bilikli, geniş dünyagörüşlü, ən başlıcası Vətənini alovlu məhəbbətlə sevən uşaqların və gənclərin tərbiyə edilməsinə səfərbər edir. İstər milli mənəvi dəyərlərin qorunması və dünya miqyasında təbliği, istər elm və təhsilin səviyyəsinin yüksəlməsi, istərsə də səhiyyənin inkişafı, insanların fiziki və mənəvi sağlamlığının təminatı sahəsində həyata keçirilən mühüm layihələr Mehriban xanımın geniş dünyagörüşündən, yüksək mənəvi keyfiyyətlərindən xəbər verir.Milli Gimnastika Federasiyasının Prezidenti kimi Mehriban xanım Əliyeva gənc nəslin fiziki-mənəvi sağlamlığının təminatı məqsədilə genişmiqyaslı iş aparır.

## AZƏRBAYCANIN DAVAMLI İNKİŞAFINA MÜHÜM TÖHFƏLƏR VERƏN GENİŞMİQYASLI FƏALİYYƏT

Mehriban xanım Əliyevanın çoxşaxəli, məqsədyönlü fəaliyyəti həm ölkəmizdə ayrı-ayrı sahələrin inkişafı, həm Azərbaycanın müsbət beynəlxalq imicinin daha da möhkəmləndirilməsi, həm də milli birliyin gücləndirilməsi baxımından böyük önəm kəsb edir.Mehriban xanım Əliyeva hələ Birinci vitse-prezident təyin edilməmişdən öncə ölkənin siyasi həyatında fəal iştirakı ilə Azərbaycanın inkişafına, sosial məsələlərin həllinə mühüm töhfələr verib. Mehriban xanım Əliyeva millət vəkili kimi fəaliyyət göstərərkən xalqa və dövlətə ləyaqətlə xidmət edərək milli maraqları daim üstün tutub, mühüm təşəbbüslərlə çıxış edib. Təsadüfi deyil ki, Azərbaycan xalqı Mehriban xanım Əliyevanın həm də millət vəkili kimi fəaliyyətini yüksək qiymətləndirib, ona yüksək etimad göstərib. Məhz Mehriban xanım Əliyevanın təşəbbüsü ilə çox genişmiqyaslı sosial-iqtisadi layihələr həyata keçirilib. Yeni tibb ocaqları, məktəblər, uşaq bağçaları, internat məktəbləri istifadəyə verilib. Mehriban xanım Əliyeva, həmçinin Milli Məclisdə Amnistiya aktının qəbul olunması təşəbbüsləri ilə çıxış edib və bunun sayəsində minlərlə məhkum azadlığa qovuşub.

Bununla yanaşı, pandemiya səbəbindən ölkəmizdə yaşanan böhran zamanı Mehriban xanım Əliyevanın peşəkarlığı sayəsində idarətmədə güc birliyi təmin olunmuşdur. Onun tapşırığına əsasən Heydər Əliyev Fondu tərəfindən pandemiya dövründə ailələrin sosial ehtiyaclarının qarşılanması, onların ərzaq və tibbi ləvazimatlarla təminatı həyata keçirilmişdir. Bakı və regionlardakı körpələr və uşaq evləri, internat məktəbləri, Uşaq Psixonevroloji Mərkəzi, bütün sosial xidmət müəssisələri, o cümlədən pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsi belə koronavirusla mübarizə tədbirləri çərçivəsində dezinfeksiyaedici vasitələrlə, maskalar, digər qoruyucu vasitələr və zəruri ehtiyaclarla mütəmadi təmin edilmişdir.

2020-ci ildə - Nəsimi ilində Mehriban xanım Əliyevanın ideyası və təşəbbüsü ilə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə bir gündə 650 min ağac əkilmişdir. Bakıda IDEA-nın təşəbbüsü və Heydər Əliyev Fondunun təşkilati dəstəyi ilə Qafqaz Biomüxtəlifliyi Sammiti keçirilmiş və beynəlxalq ekspertlərin diqqəti Azərbaycanda, eləcə də bütün Qafqazda biomüxtəlifliyin qorunmasına yönəldilmişdir. Bizim milli sərvətimiz olan muğam sənətinin yenidən inkişafı və beynəlxalq arenaya çıxarılması məhz Mehriban xanım Əliyevanın təşəbbüsü nəticəsində mümkün olmuşdur. Mehriban xanım Əliyeva Azərbaycanın maddi və qeyri-maddi irsinin, Qarabağ mədəniyyətinin, Azərbaycan xalqının yaratmış olduğu ənənə və dəyərlərin dünyada tanıdılması üçün müxtəlif təqdimatlar, sərgilər, tədbirlər keçirmişdir. Azərbaycan xalqının yaratmış olduğu mədəni abidələr dünya irs siyahılarına daxil edilərək qorunma altına alınmışdır. Məhz bunun nəticəsində dünya insanı Azərbaycanı müasir və dinamik inkişaf edən ölkə, eyni zamanda, Azərbaycan xalqını öz tarixi köklərinə bağlı olan multikultural və tolerant xalq kimi tanımağa başlamışdır.

Mehriban xanım Əliyevanın UNESCO-nun Xoşməramlı səfiri və ölkəmizin Birinci vitse-prezidenti kimi 2019-cu ildə UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Azərbaycanda keçirilməsinə təşəbbüs göstərməsi və buna nail olması tarixi hadisədir.Mehriban xanım Əliyeva 2004-cü ilin avqustunda Azərbaycan şifahi xalq ədəbiyyatı və milli musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsində xidmətlərinə görə UNESCO-nun, 2006-cı ilin noyabrında isə humanitar sahədə genişmiqyaslı fəaliyyətinə, o cümlədən sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun inkişafına, İslam mədəni irsinin təbliğinə və qayğıya ehtiyacı olan uşaqların problemlərinin həllində böyük dəstəyə görə ISESCO-nun Xoşməramlı səfiri adına layiq görülmüşdür.

Müxtəlif müsəlman ölkələrində xeyriyyə aksiyalarının keçirilməsi, müsəlman uşaqların təhsili və sağlamlığı ilə bağlı davamlı layihələrin reallaşdırılması, həmçinin Bakının İslam mədəniyyətinin paytaxtı olması önəmli təşəbbüs və vacib işlər kimi qeyd edilə bilər. Heydər Əliyev Fondu "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində ölkəmizdə yeni məscidlər inşa etmiş, müqəddəs ziyarətgahların təmir-bərpa işlərini həyata keçirmişdir. Bundan əlavə, Mehriban xanım Əliyeva yüz illər boyu Azərbaycanda dost və qardaş şəkildə yaşamış müxtəlif dinlərin nümayəndələrinin mədəni özünəməxsusluğunu qoruyub saxlaması, dini ayinlərini sərbəst yerinə yetirməsi üçün ibadət evlərinin bərpası və inşası işində də öndə dayanmışdır. Mərdəkan qəsəbəsindəki XVI əsrə aid "Pir Həsən" ziyarətgahında, Binə qəsəbəsindəki "Möhsün Səlim" və "İmam Rza", Gəncədəki "Həzrəti Zeynəb", Buzovna qəsəbəsindəki "Cümə" və s. məscidlərdə əsaslı təmir və bərpa işləri həyata keçirmişdir. Davamlı olaraq ölkəmizdəki müqəddəs məkanları, dini ibadət yerlərini ziyarət edən Mehriban xanım Əliyeva bu nəcib fəaliyyəti ilə ölkəmizdə dövlət-din münasibətlərinin daha yaxşı şəkildə qurulması işinə böyük töhfə vermişdir.

## QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜN SOYDAŞLARIMIZIN MƏNZİL-MƏİŞƏT ŞƏRAİTİNİN YAXŞILAŞDIRILMASINA HESABLANAN YENİ LAYİHƏLƏR UĞURLA REALLAŞDIRILIR

Son 18 ildə ölkəmizdə Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq qaçqın və məcburi köçkün soydaşlarımızın problemlərinin həlli məqsədilə müxtəlif proqramlar reallaşdırılıb. Son 18 ildə qaçqın və məcburi köçkünlər üçün 102 müasir qəsəbə salınıb.Mehriban xanım Əliyevanın Birinci vitse-prezident vəzifəsində 2017-ci il martın 9-da keçirdiyi ilk müşavirədə məhz Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsi məsələsi müzakirə edildi. Birinci vitse-prezidentin yanında keçirilən ilk müşavirədən sonra birinci mərhələdə ən qəzalı binalarda yaşayan 4 min ailənin köçürülməsi üçün tədbirlər planı hazırlandı. Bəhs olunan müşavirədən cəmi bir neçə ay sonra isə - 2017-ci il may ayının 30-da Mehriban xanım Əliyevanın iştirakı ilə Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün inşa edilən "Ümid" yaşayış kompleksinin təməli qoyuldu. Bundan başqa, çox qısa müddətdə Abşeron rayonunun Masazır, Mehdiabad, o cümlədən Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edilib. Ötən ilin mayında istifadəyə verilən "Qobu Park" yaşayış kompleksində hər biri 2 bloklu, 9 mərtəbəli, 1026 mənzilli 11 yaşayış binası inşa olunub.

Ötən il dekabrın 24-də Abşeron rayonunun ərazisində 1000 məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış kompleksi istifadəyə verilib. Məcburi köçkün soydaşlarımız üçün daha bir yaşayış kompleksi 27 dekabr 2018-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Sumqayıt şəhərində istifadəyə verilib. Pirallahı rayonunda Prezidenti İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın iştirakı ilə istifadəyə verilən yeni yaşayış kompleksində isə 306 məcburi köçkün ailəsi üçün gözəl şərait yaradılıb.

## ÖZ ƏMƏLLƏRİ İLƏ XALQIMIZIN DƏRİN ETİMADINI QAZANMIŞ BİRİNCİ VİTSE-PREZİDENT XANIM MEHRİBAN ƏLİYEVANIN ÖTƏN İLLƏRDƏ HƏYATA KEÇİRDİYİ FƏALİYYƏT, GÖRDÜYÜ İŞLƏR ƏN GÖZƏL NÜMUNƏLƏRDİR

Birinci vitse-prezident Mehriban Əliyevanın ötənilki fəaliyyəti ölkəmizin yüksəlişinə və beynəlxalq nüfuzunun daha da artmasına böyük töhfələr verib. 2021-ci il Azərbaycanın tarixində olduqca yüksək uğurlarla yadda qaldı. Öz əməlləri ilə xalqımızın dərin etimadını qazanmış Birinci vitse-prezident xanım Mehriban Əliyevanın ötən il həyata keçirdiyi fəaliyyət, gördüyü işlər ən gözəl nümunələrdir. 2021-ci ildə respublikamızın əsas prioritetlərindən biri işğaldan azad olunmuş ərazilərimizin bərpası olmuşdur. Elə bu günlərdə Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın Qarabağın giriş qapısı adlandırılan Ağdama səfəri, səfər zamanı bərpa işləri, o cümlədən Ağdam Cümə məscidinin Heydər Əliyev Fondu tərəfindən bərpa-restavrasiya işlərinin aparılması bir daha Mehriban xanımı Əliyevanın xalqına, dövlətinə sevgisinin təsdiqidir. Həmçinin, Mehriban xanım Əliyevanın ölkə Prezidenti İlham Əliyevlə mütəmadi olaraq işğaldan azad olunmuş torpaqlara səfəri bir daha öz Vətəninə, torpacına bağlılığın təcəssümüdür. Azərbaycan ictimaiyyəti Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlarımıza səfərləri ilə bağlı ilk və ən müfəssəl məlumatları məhz Mehriban Əliyevanın yolboyu etdiyi çəkilişlər vasitəsilə alırdı. Eyni zamanda bu görüntülər erməni barbarlığını, düşmənin vəhşiliyini bütün dünyaya çatdırdı. Mehriban Əliyevanın apardığı bu çəkilişlərdə Prezident İlham Əliyev həm də Ermənistana xəbərdarlıqlar edirdi, Azərbaycanın prioritetləri ilə bağlı mühüm mesajlar verirdi.

## BÖYÜK ZƏHMƏTLƏRƏ SÖYKƏNƏN ÖNƏMLİ TƏLTİFLƏR

Hər bir azərbaycanlı üçün fərəhlidir ki, Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyevanın fəaliyyəti beynəlxalq səviyyədə diqqətdədir. Onun gördüyü işlər cavabsız qalmamış, dünya dövlətləri, nüfuzlu təşkilatlar tərəfindən müxtəlif adlara, mükafatlara layiq görülmüşdür. Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmləndirilməsində sanballı töhfələrinə görə Rusiyanın "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeninə, sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, onların yaşayış şəraitinin yaxşılaşmasına, təhsilə, həmçinin, islam aləmində görülən işlərə böyük dəstəyinə görə İSESKO-nun xoşməramlı səfiri adına layiq görülüb. Genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə, bəşəriyyətin ali ideallarına xidmət sahəsində yüksək nailiyyətlərinə görə "Qızıl ürək" beynəlxalq mükafatı, Mərhum Polşa prezidenti Lex Kaçinski tərəfindən Azərbaycanla Polşa arasında dostluq münasibətlərinin inkişafındakı xidmətlərinə görə "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordeni, Fransanın eks-prezidenti Nikolya Sarkozinin sərəncamı ilə "Şərəf Legionu" ordeninin zabit dərəcəsi ilə təltif edilməsi və digər belə mükafatlar Onun fəaliyyətinin real qiymətidir.

Fəaliyyətinə görə təqdim olunan mükafatların davamı olaraq Onun Pakistanın nüfuzlu "Daily times" qəzeti və Qadın Könüllülər Təşkilatının "Humanizm simvolu-2012-ci ilin adamı" elan edilməsi də bəşəri, humanizm prinsiplərini yüksək tutmasına söykənir. Mehriban xanım bu ada Heydər Əliyev Fondunun 2012-ci ildə Pakistanın bütün əyalətlərində keçirdiyi humanitar aksiyalara, o cümlədən, təhsil və səhiyyə sahəsində işlərə görə layiq görülüb. Qeyd edək ki, Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə Pakistanda bir sıra layihələr gerçəkləşib. Belə ki, 2007-ci ildə Pakistanın zəlzələdən zərər çəkən Müzəffərabad şəhərində qızlar məktəbi tikilib, 2012-ci ildə isə həmin məktəb əsaslı təmir edilib, orada yenidənqurma işləri aparılıb. Həmin işlər bu gün də uğurla davam etdirilməkdədir. Bu və ya digər gördüyü işlər onu "Humanizm simvolu-2012-ci ilin adamı" elan edib.

Prezident İlham Əliyev Heydər Əliyev Fondunun fəaliyyətinin 5 illiyinə həsr olunan mərasimdə Azərbaycanın ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya "Heydər Əliyev Mükafatı"nı təqdim edib. Dövlət başçısının 29 iyun 2015-ci il tarixli Sərəncamı ilə isə Mehriban xanım Əliyeva Azərbaycan Respublikasında mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və birinci Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə ölkəmizin ən ali dövlət təltifi olan "Heydər Əliyev" ordeninə layiq görülüb.

Mehriban xanım Əliyevanın xeyriyyəçilik fəaliyyəti, həmçinin xalqlar və mədəniyyətlərarası əlaqələrin inkişafına verdiyi əvəzsiz töhfələr xarici ölkələr və təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. On ildən artıqdır ki, Mehriban Əliyeva UNESKO-nun və ISESKO-nun xoşməramlı səfiridir. Dünyada ikinci belə şəxsiyyət yoxdur ki, hər iki mötəbər təşkilatın eyni zamanda səfiri olsun. Bundan başqa, Mehriban xanım Əliyeva Rusiyanın, Fransanın, Polşanın, Pakistanın, Serbiyanın, çoxsaylı beynəlxalq təşkilatların yüksəksəviyyəli mükafatları ilə təltif olunub. 2019-cu ildə isə Prezident Vladimir Putinin Fərmanı ilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiya Federasiyasının "Dostluq" ordeni ilə təltif olunub. Birinci vitse-prezident bu mükafata Azərbaycan-Rusiya münasibətlərinin inkişaf etdirilməsi və möhkəmləndirilməsindəki xidmətlərinə görə layiq görülüb.Bu gün Mehriban xanım Əliyeva qarşıya qoyduğu məqsədə doğru daim addımlayır. Özünü, Özünün kimliyini gördüyü işlərlə təsdiqləyir və fərdi dəyərlərini ortaya qoyaraq həyat missiyasını gerçəkləşdirir, Azərbaycan tarixinə silinməz izləri, əməlləri ilə həkk olunur.

Bir sözlə, Azərbaycan xalqı ölkənin ictimai-siyasi həyatında fəal iştirak edən Mehriban xanım Əliyevanın ölkənin Birinci vitse-prezidenti kimi bundan sonra da bu çətin və məsuliyyətli vəzifənin öhdəsindən layiqincə gələcəyinə inanır və dəstəkləyir.

**RƏFİQƏ KAMALQIZI**



# Azərbaycanda mövcud olan sosial ədalət dünya üçün modeldir

**Sosial ədalət cəmiyyətin əsas göstəricisidir. Hansı cəmiyyətdə sosial ədalət mövcudursa, o cəmiyyətdə insan amilinə diqqət və qayğı da böyükdür. Əlbəttə ki, sivil bir dünyada yaşamış olsaq da, sosial ədalət prinsipinə bir çox ölkələrdə əməl olunmur və dünyanın bir qismi üçün bu əlçatmazdır. Demokratik dəyərlərə malik, mütərəqqi dövlətlərdə buna təsadüf olunur. Hüquq bərabərliyinin və insan hüquqlarının pozulması cəmiyyətdə xoşagəlməz hallarla insanları üz-üzə qoymuş olur.**

20 Fevral dünya Sosial Ədalət Gününü qeyd edir. Milyonlarla insanların qeyd etdiyi bu gün BMT-nin Baş Məclisi tərəfindən dünya ictimaiyyətinin yoxsulluqla mübarizə işində səylərini artırmaq və hər kəs üçün iş yerləri, gender bərabərliyi və insan hüquqlarına hörmətə nail olmaq məqsədi ilə yaradılıb. Müasir dünya cəmiyyətlər daxilində və cəmiyyətlərarası həmrəylik, harmoniya və bərabər imkanlar aşılamaq üçün yoxsulluq, ayrı-seçkilik və işsizliklə məşğul olmağın əhəmiyyətini dərk edir. Daha sabit, ədalətli və təhlükəsiz dünya qurmaqda sosial ədalətin vacibliyi əsas məsələlərdəndir. Hər kəs üçün sosial ədalətə nail olmaq naminə BMT-nin əsas məqsədi inkişaf və insan ləyaqətini yaymaqdır.

Əlbəttə ki, dünyanın bir parçası olan Azərbaycanda da sosial Ədalət günü qeyd olunur. Müasir dünyamızda Azərbaycan dünyanın çağırışlarına yüksək səviyyədə cavab verir. Sosial ədalətə nail olmaqda ölkəmizdə həyata keçirilən islahatları qeyd etməliyik. Həyatımızın bütün sifelaların əhatə edən islahatlar öz nəticəsin verib və bu davamlıdır. Ölkəmizin maliyyə imkanlarının güclənməsi regionların sosial-iqtisadi inkişafına, eləcə də insanların sosial rifah halının daha da yaxşılaşdırılmasına səbəb olub.

Təbii ki, Azərbaycanda mövcud olan sosial ədalət dünya üçün bir modeldir. Sosial ədalətin təmin edilməsi prioritet məsələlərdən biridir. Ölkəmizdə sosial ədalətin təminatı istiqamətində ciddi addımlar atılıb. Azərbaycanda dövlətin iqtisadi siyasətinin sosial yönümlü olması, Prezident İlham Əliyevin ölkə vətəndaşlarının sosial müdafiəsinin gücləndirilməsinə göstərdiyi diqqət, insan amilinə verilən yüksək dəyər sosial ədalətdən qaynaqlanır. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin böyük uzaqgörənliklə həyata keçirdiyi sosial-iqtisadi siyasət ölkəmizin davamlı inkişafının təmin olunmasında həlledici rol oynayır. Uğurla həyata keçirilən dövlət proqramları və bu sahədə görülən tədbirlər qeyri-neft sektorunun davamlı inkişafına, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına təkan verib. Bu günə qədər reallaşan dövlət proqramları böyük uğurla icra olunub. Görülən işlər əhalinin rifahının yüksəlməsinə, yeni iş yerlərinin açılmasına və s. səbəb olub. Sözsüz ki, dövlət proqramlarının icrası məşğulluğun təmin olunması istiqamətində atılan vacib addımlardan biridir. Regionlarda yaradılan biznes mühiti, kənd təsərrüfatı və sənayenin inkişafı üçün infrastruktur artıq öz bəhrəsini verməkdədir.

## GENİŞ ƏHALİ KATEQORİYALARINI ƏHATƏ EDƏN ETİBARLI SOSİAL MÜDAFİƏ SİSTEMİ FORMALAŞDIRILIB

Əhalinin sosial müdafiəsi sahəsində bir sıra uğurlu layihələr icra edilir. Azərbaycan Respublikası Prezidentinin 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də bu sahəyə böyük önəm verilir. Sənəddə qeyd olunduğu kimi, davamlı və yüksək iqtisadi artım dinamik və inklüziv cəmiyyətin formalaşmasına xidmət etməli, hər bir vətəndaş öz həyatında bu inkişafı hiss etməlidir. İnsanların sosial statusundan və yaşadığı ərazidən asılı olmayaraq iqtisadi imkanlara çıxışı bərabər və ədalətli olmalıdır. Belə ki, inkişafdan hər bir vətəndaş bəhrələnməlidir. Sosial təminat sisteminin daha effektiv və ədalətli olması hesabına aşağı gəlirli və yoxsulluğa həssas təbəqənin, əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların sosial müdafiəsi və sosial təminatı gücləndirilməlidir. Dövlətin 2030-cu ilədək həyata keçirəcəyi iqtisadi layihələrin gətirəcəyi faydalardan ölkə vətəndaşlarının bəhrələnməsi milli prioritetlərin əsas məqsədidir.

Ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində əlbəttə ki, insan amili daynır, onların maraqları dayanır. 2020-ci il ölkəmiz üçün çətin və mürəkkəb bir il olsa da, qələbə tariximizin yazıldığı zaman olaraq tarixiləşdi. Vətən müharibəsi, kornovirus pandemiyası ilə mübarizə də Azərbaycan öz iradəsini, gücünü, həmrəyliyini ortaya qoyaraq nəyə qadir olduğunu sübut etdi. Belə bir zamanda Azərbaycan dövləti əhalinin sosial rifahının və onun daim yüksələn xətt üzrə inkişafına nail olunmasını diqqətdə saxlayır. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev ölkədə sosial məsələlərin həllini, əhalinin rifahının yüksəlişini prioritet məsələ hesab edir və ölkəmizdə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Təbii ki, bütün bunlar planlı, Azərbaycan dövlətinin sosial iqtisadi inkişafına uyğun, dövlət büdcəsinin imkanlarına, hazırlanan proqramlara uyğun olaraq həyata keçirilir. Dövlət başçısının uğurlu sosial siyasəti respublika əhalisinin rifah halının yaxşılaşdırılması, sosial cəhətdən həssas əhali qruplarına dövlət qayğısının artırılması istiqamətində kompleks tədbirlərin ildən-ilə gücləndirilməsinə, geniş əhali kateqoriyalarını əhatə edən etibarlı sosial müdafiə sisteminin formalaşdırılmasına imkan yaradıb.

Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması, aztəminatlı ailələrin, müharibə veteranlarının, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsinə hesablanıb. Dövlət başçısının "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamı və digər rəsmi sənədlər Prezident Cənab İlham Əliyevin güclü sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalətin dayandığının göstəricisidir. Müharibədə sağlamlığını itirmiş oğulların sağlamlığının bərpası və normal həyata qayıtmağı üçün dövlətimiz tərəfindən addımlar atılır.

## SOSİAL DƏSTƏK TƏDBİRLƏRİ İCRA OLUNUR

Bildiyimiz kimi, Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırığına əsasən genişmiqyaslı sosial dəstək tədbirləri icra olunmağa başladı. Ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin, bu döyüşlərdə əlil olmuş şəxslərin həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində aparılan işlər davam edir. Şəhid ailələrinə ayrılan diqqətin nəticəsidir ki, bu gün onlar eyni zamanda, mənzillərlə də təmin olunurlar. "Bir dənə də şəhid ailəsi qalmayacaq ki, dövlət ona ev və ya mənzil verməsin", - deyən Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, bu, bizim siyasətimizdir, bu, bizim yolumuzdur, biz bu yolu gedirik.

Vətən müharibəsi şəhidlərinin ailə üzvləri olan 7942 şəxsə 15841 sosial ödəniş - prezidentin təqaüdü, sosial müavinət, pensiya təyin olunub, həmçinin 2515 müharibə iştirakçısına əlillik və sosial ödənişlərin təyinatı həyata keçirilib. Şəhid ailələri, müharibə əlilləri üçün sosial ödənişlərin məbləği əhəmiyyətli dərəcədə artırılıb. Statistik məlumatlara istinadən, şəhid ailələrinin, müharibə əlillərinin mənzil və fərdi evlə təminatı proqramı 2021-ci ildə 5 dəfə genişlənib. 2021-ci il üzrə şəhid ailələri və müharibə əlillərinə 3 min mənzil, müharibə əlillərinə 164 avtomobil verilib. Ümumilikdə, ötən dövrdə 12300 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə, 7400 müharibə əlili avtomobillə təmin olunub.

Şəhid ailələri üzvləri, müharibə iştirakçıları, erməni terrorundan zərər çəkən şəxslər daxil olmaqla 10 minədək şəxsin məşğulluğuna dəstək göstərilib, o cümlədən 6 minədək şəxs özünüməşğulluq proqramına cəlb edilib, 4 minədək şəxs işlə təmin olunub. Reabilitasiya müəssisələrində 1300 nəfərə reabilitasiya və sosial-psixoloji xidmətlər göstərilib. 184 hərbçi yüksək texnologiyalı müasir 4-cü nəsil 193 ədəd protezlə, əksəriyyəti müharibə əlilləri olan 955 nəfər mühərrikli təkərli oturacaqla, 1197 nəfər 12948 reabilitasiya vasitəsi ilə təmin edilib.

Şəhid ailələrinin sosial təminatı da yaxşılaşır, şəhid ailələrinə və müharibə əlillərinə, milli qəhrəmanlara verilən Prezident təqaüdünün də məbləği ötən dövrdə mütəmadi artırılıb, bu qəbildən olan insanların uşaqlarına aylıq sosial müavinətin verilməsi təmin olunub. Bununla da şəhid ailələrinin sosial müdafiəsi ildən-ilə yaxşılaşıb, dövlətimizin başçısının bu sahədə həyata keçirdiyi tədbirlər ictimaiyyət tərəfindən hər zaman böyük rəğbət və məmnunluqla qarşılanır.

## VƏTƏNDAŞ MƏMNUNLUĞUNA TAM TƏMİNAT VERƏN DOST MƏRKƏZLƏRİ

Azərbaycanda aparılan sosialyönümlü siyasət, əhalinin öz güzəranını təmin etmək üçün sahibkarlıq fəaliyyəti ilə məşğul olmasına şərait yaradıb. Sahibkarlara daim diqqət göstərilir, onlara güzəştli kreditlər verilir, fermerlərə subsidiyalar ayrılır ki, bu da ölkədə sahibkarlığın inkişafına münbit şəraitin olduğunu əks etdirən amillərdir. Aztəminatlı ailələrin məşğulluğuna və əmək potensiallarının reallaşdırılması yolu ilə gəlirlərinin artmasına, əlavə iş yerlərinin yaradılmasına, eləcə də kiçik və orta sahibkarlığın inkişafına geniş imkanlar yaradılıb.

Prezident İlham Əliyevin islahatlar proqramına uyğun olaraq, eyni zamanda, dövlət sosial xidmətləri sisteminin mütərəqqi beynəlxalq təcrübələrə və innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin təmin edilməsi istiqamətində ardıcıl işlər aparılır. DOST adlanan daha bir innovativ xidmət növü də vətəndaşlarda məmnunluq yaradıb. Prezident İlham Əliyevin fərmanı ilə yaradılan DOST mərkəzləri əmək, məşğulluq, sosial müdafiə sahələri üzrə xidmətlərdə vətəndaş məmnunluğuna tam təminat verir. 2025-ci ilə kimi ölkə ərazisində, ümumilikdə, 31 DOST mərkəzi açılacaq və bununla da Azərbaycanın bütün ərazisi və bütün vətəndaşları DOST xidmətləri ilə əhatə olunacaq. Bu xidmətlərə ehtiyac duyan hər kəs ondan asanlıqla yararlana biləcək. Azərbaycan Prezident İlham Əliyevin vurğuladığı kimi, "Bizim siyasətimiz demək olar ki, DOST mərkəzlərində öz əksini tapır - islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni, bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etməlidir. Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcək".

***Nəzakət ƏLƏDDİNQIZI***

# 21 Fevral - Beynəlxal Ana Dili Günüdür

**Fevralın 21-i bütün dünyada Beynəlxalq Ana Dili Günü kimi qeyd olunur. 1999-cu ilin noyabrında Banqladeş səfirinin təşəbbüsü ilə UNESCO tərəfindən fevralın 21-i Beynəlxalq Ana Dili Günü elan edilib.**

Beynəlxalq Ana Dili Günü 1952-ci il fevralın 21-də Banqladeşin Benqal şəhərində öz ana dilinin rəsmi dil olması uğrunda mübarizə aparan 4 tələbənin öldürülməsi hadisəsini bir daha insanların xatirəsində canlandırır. Ana dili insanın mənəvi aləminin zənginləşməsində, dünyagörüşünün genişlənməsində, mükəmməl təhsil almasında, öz soydaşları ilə ünsiyyət qurmasında mühüm rol oynayır.

Dil hər bir millətin varlığını ifadə edən, maddi və mənəvi irsini qoruyan və inkişaf etdirən vasitədir. Dil ünsiyyət vasitəsidir. Dil milli şüurun və milli kimliyimizin formalaşmasında mühüm amillərdən biridir. Xalqımızın ən zəngin milli-mədəni irsi onun adət-ənənələri, mədəniyyəti, tarixi və dilidir. Bu əsasda formalaşdırılan milli-mənəvi dəyərlər sistemi zaman-zaman qorunub-saxlanılmış və bu günümüzə qədər gəlib çatmışdır.

Dünyada məhv olmaq təhlükəsi ilə üzləşən dillərin qorunması məqsədilə hər il keçirilən Beynəlxalq Ana Dili Günü insanlara öz doğma dilinin varlığını hiss etmək, onunla qürur duymaq, onu qorumaq, inkişaf etdirmək hüququ olduğunu bir daha xatırladır. Bizim ana dilimiz vüqarımızdır, tariximiz, keçmişimiz, bu günümüz və gələcəyimizdir. Bu günə qədər tarixi reallıqlar deməyə əsas verir ki, çox ziddiyyətli yollar keçmiş Azərbaycan dili öz zənginliyini və saflığını qoruyub-saxlamışdır. Belə ki, tariximizə dönüb baxmaq görərik ki, tarixdə humanist, sülhsevər, mehriban və xeyirxah xalq kimi məşhur olan, uzun əsrlər boyu həm onu əhatə edən qonşularla, həm də bütün digər xalqlarla dostluq, qardaşlıq münasibətlərində yaşayan Azərbaycan xalqı tarixin müxtəlif dövrlərində bir sıra işğalçılarla üz-üzə gəlmişdir. VII əsrdən başlayaraq Azərbaycana ərəb işğalçıları, sonralar isə fars, monqol və başqaları basqın etmişlər. Bu yadellilərin məqsədi xalqımızı və eləcə də onun dilini tarix meydanından çıxarmaq idi.

### DİLİN SAFLIĞI VƏ TƏMİZLİYİ UĞRUNDA MÜBARİZƏ

Lakin Azərbaycan xalqı bütün tarix boyu bu mənfur işğalçılarla amansız mübarizə apararaq öz varlığını qoruduğu kimi, doğma dilini də mühafizə edib saxlamışdır. Azərbaycan dili ərəb istilası dövründə iki əsr əsarət altında olmuş və bu baxımdan da, dilimizə ərəb-fars mənşəli sözlər daxil olmuşdur. Ərəb əlifbası dəyişdirildikdən sonra latın qrafikasına keçsək də, bu, uzun sürməyən bir proses olmuşdur. Belə ki, sovet imperiyasının Azərbaycanda hökmranlığı, sözsüz ki, öz təsirini göstərməyə bilməzdi. Rus şovinizminin təsiri nəticəsində, əlifbamızın dəyişməsi, kiril əlifbasına keçid, ana dilimizin zəifləməsinə gətirib çıxardı, saflığına və təmizliyinə mənəvi təsir göstərdi. Belə ki, ərəb-fars mənşəli sözlərlə zəngin olan ana dilimiz rus mənşəli sözlərlə bir qədər zəifləməyə başladı.

Onu da, qeyd edək ki, bu proseslər dilimizə nə qədər təsir etsə də, digər tərəfdən, Azərbaycan ziyalılarının dilin saflığı və təmizliyi uğrunda mübarizəsi, ana dilimizin qorunmasına yönəldilmişdir. 19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərində dil uğrunda mübarizə daha da sürətləndi. Dilin təmizliyi istiqamətində çox ciddi addımlar atılmağa başlandı. Tədqiqat işlərinin nəticəsi olaraq, dilçi alimlərin yaratdığı əsərlər Azərbaycan dilinin leksikologiyasına, qrammatikasının və onun semantik xüsusiyyətlərinin öyrənilməsinə yönəldilmişdir. Müxtəlif lüğətlərin yaranması, ana dilini öyrənən əsərlərin meydana çıxması dilçi alimlərin və ziyalıların gərgin əməyi nəticəsində ortaya qoyuldu. Sözsüz ki, belə bir gündə dilçilik elmində Azərbaycan dilinin bu və ya digər sahələrini öyrənən alimlərin adını qeyd etməmək mümkün deyil. F.Köçərli, M.Dəmirçizadə, T.Hacıyev və başqaları Azərbaycan dilinin inkişafı istiqamətində çox ciddi elmi faktlara əsaslanan nümunələrlə çıxış etməyə başladılar. Onu da qeyd edək ki, Azərbaycan ziyalıları təbəqəsi, bir estafet olaraq, öz yerlərini yetişməkdə olan dilçilərə vermişdirlər. Həsən bəy Zərdabinin, Cəlil Məmmədquluzadənin, Əli bəy Hüseynzadənin, Ömər Faiq Nemanzadənin, Nəriman Nərimanovun və onlarla belə ziyalıların dil uğrunda apardığı mübarizə dilin saflığına və leksikologiyasının zənginləşməsinə müsbət təsirini göstərmişdir.




1969-cu ildən başlayaraq, Azərbaycan dili sahəsində aparılan islahatlar öz nəticəsini verməyə başladı. Ümummilli Lider Heydər Əliyev ana dilinin saflığının qorunması üçün mühüm addımlar atdı. Ölkəmizdə ana dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması Ulu Öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir. "Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini, Azərbaycan dilini və dövlət dilini mükəmməl bilməlidir", deyən Ulu Öndər Heydər Əliyev dil uğrunda mübarizədə qətiyyət və prinsipial mövqedən çıxış edirdi. 1978-ci ildə SSRİ rəhbərliyi milli dəyərlərə, dilə birmənalı yanaşdığı halda, Ümummilli Liderin qətiyyəti və məntiqi nəticəsində, Azərbaycan Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olduğunu təsdiq edən maddə daxil edildi. Bu, dilimizə qarşı olan tələbkarlıq idi. Onu da bildirək ki, həmin illərdə Azərbaycan dilinin tarixi o zamana qədər görünməmiş ardıcıllıqla araşdırılıb, çoxcildlik "Müasir Azərbaycan dili" kitabları yaradılıb.

### DİL XALQIN MİLLİ SƏRVƏTİDİR

Müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də Referendum yolu ilə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit edildi. Hər hansı bir dilin dövlət dili statusu alması, şübhəsiz ki, hər bir dövlətin bir dövlət kimi formalaşması ilə, bilavasitə bağlıdır. İmperiya dövründə ana dilimizə qarşı edilmiş haqsızlıq aradan qaldırıldı, onun hüquqları qorundu və cəmiyyətdəki mövqeləri tam bərpa edildi. Müstəqilliyimizin qazanılmasından sonra yaranmış tarixi şərait xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni perspektivlər açdı və latın qrafikalı Azərbaycan əlifbasının bərpasını zəruri etdi. Bu isə, müvafiq qanun qəbul olunması ilə nəticələndi. 1 Avqust Azərbaycan Dili və Əlifbası Günü kimi qeyd olunması ilə bağlı 9 avqust 2001-ci ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən Fərman imzalandı. Ümummilli Lider Heydər Əliyevin imzaladığı sərəncamlar əsasında Azərbaycan dilinin təkmilləşməsinə, onun inkişafına yol açıldı. Daha sonra Ulu Öndər Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Sərəncamı da milli-mənəvi dəyərlərin qorunub-saxlanması istiqamətində həyata keçirdiyi məqsədyönlü siyasətin əsasını təşkil edən amillərdəndir.

2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünümüdafiə ehtiyaclarının ödənilməsi istiqamətində daha bir addım olub.

Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dilimizə, mədəniyyətimizə daim böyük diqqət və qayğı göstərən Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü dil siyasəti Azərbaycan dilinin inkişafına öz töhfələrini verir. Dövlətimizin başçısının "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında", "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamları, "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı və bu istiqamətdə görülən işlər dilimizin inkişafına böyük qayğının təzahürüdür.

Hər bir xalqın varlığının təzahürü, onun milli sərvəti, qan yaddaşı olan dili kimliyimizi təsdiq edir.

***Zümrüd BAYRAMOVA***




## "Vətəndaşlarımız yaxın vaxtlarda öz ata-baba yurdlarına qayıdacaqlar"

"Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Qəhrəman Azərbaycan Ordusu 44 gün davam edən Vətən müharibəsində tarixi Zəfər qazanaraq işğal altında olan torpaqları işğaldan azad etdikdən sonra qarşıda duran əsas vəzifə işğaldan azad olunmuş ərazilərimizdə vətəndaçlarımzın öz ata-baba yurdlarına qayıtmaları üçün şərait yaradılmasıdır. Bu məqsədlə cənab Prezidentin tapşırıqlarına əsasən azad olunmuş ərazilərdə geniş miqyaslı tikinti- quruculuq və bərpa işləri həyata keçirilir". Bu sözləri SİA-ya açıqlamasında deputat Rauf Əliyev deyib.

Onun sözlərinə görə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva 13-14 fevral 2022-ci il tarixində Ağdam və Ağcəbədi rayonunda səfərdə olublar: "Səfər zamanı cənab Prezident və Birinci Xanım çox əhəmiyyətli infrastruktur obyektlərinin açılışında və təməlqoyma mərasimlərində iştirak ediblər. İstifadəyə verilən "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının fəaliyyəti nəticəsində Ağdam rayunu elektrik enerjisi ilə dayanıqlı şəkildə təmin olunacaqdır. Altı evdən ibarət yaşayış kompleksi, 210 çarpayılıq Ağdam Mərkəzi Şəhər Xəstəxanasının, "Park Rorest Otel Ağdam" mehmanxanasının təmlqoyma mərasimi küçirilmişdir. Min nəfər şagird yeri olan məltəb binası tikilir. Ağdama qaz xətlərinin şkilməsi, içməli su ilə təchizat msələləri müvafiq İnvestisiya Proqramında nəzərdə tutulmuşdur. Ağdam rayonunun bərpası ilə bağlı həyata keçirilən kompleks tədbirlər qısa müddət ərzində rayonun yenidən qurulmasına imkan yaradacaq. 190 hektar ərazidə qurulacaq Ağdam Sənaye Parkı təkcə bu rayonun deyil, ətraf rayonların da inkişafına imkan yaradacaq. Sənaye Parkında iki müəssisəsənin təməli qoyulmuşdur".

Deputat sözlərinə belə davam edib: "Azərbaycanın elektroenergetika tarixində ilk dəfə Qarabağ və Şərqi Zəngəzur elektrik şəbəkəsinin Regional Rəqəmsal İdarəetmə Mərkəzi məhz Ağdamda yaradılıb. Bu Mərkəz vasitəsilə regiondakı bütün elektrik stansiyaları, yarımstansiyalar, ötürmə xətlərinin monitorinqi, açılıb-qoşulmalar, tənzimləmələr və başqa əməliyyatlar avtomatik şəkildə həyata keçirilməsinə imkan yaradır.

Cənab Prezident İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva Ağcəbədi rayonunda da ümumi sahəsi 3 min hektar olan "Ağcəbədi taxıl Aqropark"da yaradılmış şəraitlə tanış olmuşlar. Ümumi dəyəri 35 milyon manat olan aqroparkın yaradılmasına 9,8 milyon manat məbləğində güzəştli kredit verilib. Burda 41-i daimi olmaqla 150 iş yeri yardılıb. Rayonda yenidən qurulan 110/35/10 kilovoltluq yarımstansiya, Daxili işlər nazirliyi Daxili Qoşunlarının yeni inşa olunmuş hərbi şəhərciy, Afşar-Salmanbəyli-Aşağı Afşar-Xocavənd avtomomil yolu istifadəyə verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə sürətlə həyata keçirilən geniş miqyaslı tikinti-quruculuq və bərpa işlər, həyata keçirilən sosial infrastruktur layihələri deməyə əsas verir ki, vətəndaşlarımızın yaxın vaxtlarda öz ata-baba yurdlarına qayıtması təmin olunacaqdır".

***Ayşən Vəli***

***Apreldə Fransada prezident seçkiləri keçiriləcək. Hazırkı dövlət başçısı Emmanuel Makron hələ ki, namizədliyini açıqlamayıb, lakin o, yəqin ki, sadəcə olaraq uyğun anı gözləyir. Və həmin an gəlməmişdən əvvəl Fransa lideri xarici siyasətə diqqət yetirərək xal toplamaq və yeni tərəfdarlar əldə etmək qərarına gəlib. Bunun üçün ən yaxşı vaxtdır. Birincisi, Fransa Avropa Şurasına sədrlik edir. İkincisi, Angela Merkel Almaniya kansleri postundan getdikdən sonra Aİ-ni təmsil edən "əsas lider"in yeri boşalıb. Makron artıq iddialı islahat gündəmi təklif edib və Rusiya, Ukrayna və NATO arasında qeyri-münasib münasibətlərdə vasitəçi rolunu öz üzərinə götürüb. Eyni zamanda, prezident öz vətənində milləti birləşdirə bilməyib - Fransa cəmiyyətində parçalanma dərinləşməkdə davam edir. Makron prezident postunu saxlayaraq Avropanın lideri ola biləcəkmi və onun Ukrayna böhranının həllində əsas rol oynamaq şansları nə qədərdir?***



# Ambisiyası Makronu Avropanın yeni lideri edə biləcəkmi?



## Körpüləri tikmək vaxtıdır

2022-ci il yanvarın 1-dən Fransa Aİ Şurasına sədrliyi Sloveniyadan qəbul edib. Prezident Makron 2022-ci ilin Avropa üçün dönüş nöqtəsi olacağını vəd edərək, bu iddiasını əsasən növbəti altı ay ərzində İttifaqda islahatlar planları ilə əlaqələndirib. Hələ 2021-ci ilin dekabrında Yelisey sarayında keçirdiyi mətbuat konfransında o, Fransanın Aİ Şurasına sədrliyinin əsas məqsədini - Avropanı daha suveren, dünyada güclü və öz müqəddəratını müstəqil idarə edə bilən bir gücə çevirmək olduğunu açıqlamışdı. Əsas skripkanın ABŞ tərəfindən ifa olunduğu Ukrayna ətrafında yaranan atmosfer fonunda bu xüsusilə kəskinləşib.

Makron Berlinlə əməkdaşlıq edərək Ukraynada sülh prosesində Avropanın rolunu gücləndirmək qərarına gəlib. Fransa prezidenti Moskva ilə Vaşinqton arasında danışıqların konkret nəticələrini hiss etməyib və Paris və Berlinə Normandiya formatında və ya başqa yollarla böhranın həllinə kömək etməyə hazır olan alternativ tərəflər kimi təklif edib. O, Rusiyanın Kiyevə təcavüzü halında Aİ-nin dərhal tədbir görəcəyini, lakin diplomatik təmasların davam etdirilməsində israrlı olduğunu vurğulayıb.

Makron Moskvaya şəxsən səfər edən və rusiyalı həmkarı Vladimir Putinlə danışıqlar aparan ilk avropalı siyasətçi olub. Görüş fevralın 7-də baş tutub və beş saatdan çox davam edib. Onun əsas mövzusu məhz Ukrayna və Avropada yeni müharibənin qarşısının alınması olub. Putin Makrona bildirib ki, Kiyev Minsk razılaşmaları üzrə öhdəliklərini yerinə yetirməkdən imtina edir. Fransa lideri razılaşıb ki, Minsk razılaşmaları Ukraynada nizamlanma üçün əsas olaraq qalır və bu məsələnin həlli yalnız siyasi ola bilər.

"İnanmıram ki, biz yeni qaydalar və ya qaydasız oyun arasında seçim etməyə məcburuq. Bu, mənim fikrimcə, iradəyə əsaslanan nikbinlikdir. Rusiya suverenlik və hüquqlara sadiqdir. Amma əminəm ki, biz ATƏT çərçivəsində artıq əldə etdiyimiz hadisələri təsdiq etməklə Avropada təhlükəsizlik və sabitlik yarada bilərik". Bunu da Emmanuel Makron deyib.

Putinlə görüşdən sonra Fransa prezidenti əsas məqsədinə çatdığını bəyan edib - o, rusiyalı həmkarından Ukraynada böhranın daha da gərginləşməsinə səbəb olmamaq vədini alıb. Lakin digər Qərb siyasətçiləri bu vədlərə inanmayıblar və onlar Moskvanı vəziyyəti gərginləşdirməkdə ittiham etməyə davam ediblər.

Kremlə səfərindən dərhal sonra Beşinci Respublikanın rəhbəri Kiyevdə Ukrayna prezidenti Vladimir Zelenski ilə görüşüb. Danışıqlardan sonra Makron vurğulayıb ki, Kiyev də Minsk razılaşmalarının həyata keçirilməsinə sadiqdir. Eyni zamanda, Zelenskinin özü belə bir öhdəlik barədə heç nə deməyib.











İndi Rusiyanın Ukraynanı işğal etmək niyyətini inamla bəyan edən Amerika və Britaniya siyasətçilərindən fərqli olaraq, Fransa Putindən belə bir niyyət görmədiyini bəyan edib. Yelisey sarayı Rusiyanın mümkün təcavüzü ilə bağlı bəyanatlarda daha ehtiyatlı ifadələr seçmək qərarına gəlib. Bu yanaşma Parisin Vaşinqtondan Ukrayna böhranı ilə bağlı müstəqil mövqe saxlamaq niyyətini təsdiqləyir.

Eyni zamanda, təkcə Makron deyil, onun qarşıdan gələn seçkilərdəki rəqibləri də Rusiya ilə diplomatik dialoqun qurulmasının və Ukraynada nizamlanmaya vasitəçiliyin tərəfdarıdırlar. Belə ki, respublikaçı namizəd Valeri Pekress Ukraynanın NATO-ya daxil olmasına qarşı çıxıb və seçkilərdə qalib gələcəyi təqdirdə Kiyevin alyansa üzvlüyünü rədd edəcəyinə söz verib. Müsahibələrin birində o, rus dilində danışdı və Rusiya xalqına "Avropada sülhü birlikdə qurmağa" çağırıb.

"Reconquest" partiyasının qurucusu Erik Zemmur da oxşar mövqeləri tutur. O, Fransa hakimiyyətini "ABŞ-ın aləti" olmaqdan əl çəkməyə və Moskvaya qarşı sanksiyaları ləğv etməyə çağırıb.

Sankt-Peterburqdakı Ali İqtisadiyyat Məktəbinin siyasi elmlər və beynəlxalq münasibətlər kafedrasının müdir müavini Vera Ageeva qeyd edib ki, Fransa tarixən qitədə sülhün qorunmasında öz məsuliyyətini dərk edib. O, Parisin 2008-ci ildə Gürcüstandakı münaqişənin həllində uğurlu iştirakını xatırladıb. Sonra Fransanın xarici işlər naziri Bernard Kuşner Moskva ilə Tbilisi arasında gərgin danışıqlarda vasitəçi kimi çıxış edərək tərəflərə dialoq qurmağa kömək etdi.

Yəqin ki, Makron Donbassdakı böhranda oxşar rola ümid edir. Eyni zamanda həm Avropa liderləri, həm də Rusiya və Ukrayna liderləri Avropanın hərəkətlərinin çox məhdud olduğunu görürlər. Ageyevanın sözlərinə görə, Aİ-nin siyasi elitası yalnız Moskva və Vaşinqton arasında gedən real danışıqlardan kənarda qalmalarından məyusdur.

İnsanda belə bir hiss yaranır ki, onların (Avropa liderləri) simvolik rolu var - onlar öz funksiyalarını yerinə yetirir, gəlib onları silahı yerə qoymağa, müharibənin qarşısını almağa inandırırlar. Ancaq bu, vəziyyətə real təsir göstərməyən bir ritualdır.

Eyni zamanda, Ukrayna ilə bağlı danışıqlarda Fransanın simasında alternativ partiyanın görünməsi müsbət təsir göstərə və vəziyyətin deeskalasiyasını yaxınlaşdıra bilər ki, Makron buna ümid edir.

## Müstəqillik, sülhməramlılıq və Rusiya ilə dialoq

Makronun ümumavropa gündəminin əsas mövzularından biri Avropanın siyasət və təhlükəsizlik baxımından müstəqilliyinin möhkəmləndirilməsidir. Söhbət xüsusən də xarici müdaxilənin və digər dövlətlərin Aİ-yə təzyiqinin yolverilməzliyindən gedir. Fransa lideri hesab edir ki, Avropa ölkələrinə əsl texnoloji müstəqillik və ümumi müdafiə strategiyası lazımdır. Onun planına görə, o, NATO xəttini tamamlayacaq, lakin regionun təhlükəsizliyini təmin etmək üçün təkcə alyansa üzvlük kifayət etmir.

"Məqsədimiz, digər böyük dövlətlərin seçimlərindən asılı olmayaraq, öz gələcəyini həll etmək üçün vasitələrin olmasını təmin edən Avropadır". Bu fikirlər də Fransa prezidentinə aiddir.

Makronun Avropa gündəminin mühüm bəndi Vaşinqtondan asılı olmayaraq Moskva ilə dialoqun davam etdirilməsi idi. Makron hesab edir ki, Avropa və ABŞ arasında koordinasiya yaxşıdır, lakin avropalıların özləri Rusiya ilə dialoq aparmalıdırlar. V respublikanın lideri vurğulayıb ki, Rusiyanın Avropadakı siyasəti yalnız sanksiyalar üzərində qurulmamalıdır. Oxşar mövqeyi Almaniyanın yeni kansleri Olaf Şolz da sərgiləyib.

Valday Klubunun eksperti Arnaud Dubyen isə qeyd edib ki, hələ 2019-cu ildə Makron Putinlə görüşdən sonra Paris və tərəfdaşlarının münasibətdə fərqli maraqlarının olduğunu bildirib. Vaşinqtonu nəzərdə tutan Dubyenin fikrincə, bu, siyasətçinin Moskva ilə birbaşa və ayrıca əlaqə saxlamaq və inkişaf etdirmək niyyətini izah edir. Eyni zamanda, Fransa prezidenti Polşa və Baltikyanı ölkələr kimi Şərqi Avropa dövlətlərinin qınaqları ilə üzləşə bilər.

Makronun şərq siyasətinin əsas ziddiyyəti də budur: Bir tərəfdən o, Fransanın siyasətini Aİ çərçivəsindən kənarda düşünmür, digər tərəfdən isə onun Moskvaya qarşı konstruktiv yanaşması tükənir, hərdən də Rusiyaya qarşı düşmənçilik edən Aİ ölkələri ilə konsensus axtarışı puça çıxır.

Söhbət Paris və Moskva arasında müstəqil dialoqdan gedirsə, bu, Fransa ilə ABŞ arasında münasibətlərin pozulması demək deyil. Bu sual daha çox Rusiya və ABŞ-a aid deyil, prinsipcə Aİ-nin müstəqil xarici siyasətinə aiddir. Beləliklə, Avropa İttifaqı ilə bağlı sazişlərdə ümumi xarici siyasət nəzərdə tutulsa da, praktikada İttifaq çox vaxt mühüm məsələlərdə konsensusa malik olmur. Eyni zamanda, Aİ ölkələri öz mövqelərini NATO və Vaşinqton xəttinə uyğunlaşdırmaq məcburiyyətindədirlər, eyni zamanda ən mühüm beynəlxalq danışıqlarda təvazökar vasitəçi rolunda qalırlar.

Paris və Şimali Atlantika Alyansı arasında münasibətlər həmişə çətin olub. 1966-cı ildə Beşinci Respublikanın keçmiş prezidenti Şarl de Qoll Fransanın NATO-nun hərbi strukturundan çıxdığını elan edib və 43 il ərzində ölkə yalnız alyansın siyasi strukturunda qalıb. O zaman Yelisey sarayı təkcə Vaşinqtonun təşkilatda aparıcı rol oynamamasını istəyirdi. ABŞ NATO-ya daha çox sərmayə qoyduğuna görə, müəyyən mənada gündəmi də özü müəyyən edir və bəzi qərarların qəbuluna təkan verə bilir. Böhranların əksəriyyətinin Avropa ərazisində və ya onun yaxınlığında baş verdiyini nəzərə alsaq, bu vəziyyət Aİ-yə bəzi çətinliklər yaradır.

Makronun Aİ-nin təhlükəsizliyini, ABŞ və NATO-dan müstəqilliyini gücləndirmək təşəbbüslərinə Avropa ordusunun olmaması əngəl törədir. Onun yaradılması ilə bağlı söhbətlər uzun müddətdir ki, gedir, lakin yalnız planlar səviyyəsində qalır. Hələ 2018-ci ildə Fransa lideri bu istiqamətdə qəti addımların atılmasının vacibliyini müdafiə edirdi. İttifaqın xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Josep Borrell Polşadakı miqrasiya böhranı fonunda bu məsələyə qayıtmağa çağırıb ki, vahid ordu Aİ sərhədlərini qoruya bilsin. Moskva ilə Kiyev arasında gərginlik fonunda bu məsələ yenidən aktuallaşır. Hazırda Avropa təhlükəsizlik məsələlərində Şimali Atlantika blokuna arxalanmalıdır. Aİ-nin öz ordusu olmadığı bir şəraitdə özünü xarici siyasət məsələlərində güclü və nüfuzlu oyunçu kimi hiss etmək çətindir, çünki müharibə beynəlxalq məsələlərdə sonuncu arqument olaraq qalır.

Almaniyanın keçmiş kansleri Angela Merkel bununla bağlı Makronu dəstəkləyib. Lakin Almaniyanın yeni kansleri ilə Fransa lideri bu mövzuda yenidən dialoq qurmalı olacaq. Şolz belə bir təşəbbüs haqqında müsbət danışsa da, onun həyata keçirilməsini yaxın gələcəkdə mümkün saymayıb. İstənilən halda, Makronun Aİ-nin müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində gördüyü işlər, yəqin ki, ittifaqın vahid silahlı qüvvələri ilə bağlı danışıqları canlandıracaq.

Merkel Almaniyanın federal kansleri postundan getdikdən sonra Avropada İttifaqını təmsil edən "baş lider"in yeri boşalıb. Makronun bu postu tutmaq və Aİ-ni yeni istiqamətə yönəltmək şansı var. Belə ki, Merkel tez-tez Avropanın gələcəyi ilə bağlı strateji baxışı olmadığı üçün tənqid olunur, Fransa prezidenti isə daha müstəqil Avropanın tərəfdarıdır və bu məqsədə çatmaq üçün konkret addımlar təklif edir. Paris və Berlin arasında Avropa liderliyi uğrunda rəqabət onilliklərdir ki, davam edir, lakin hazırda Fransanın irəli getmək imkanı var.

Makronun siyasi gələcəyini müəyyənləşdirən məqam apreldə keçiriləcək qarşıdan gələn seçkilər olacaq. Hazırda o, potensial namizədlər arasında favorit olaraq qalır, lakin siyasətçiyə ictimai dəstəyin səviyyəsi 37 faizə düşüb. Eyni zamanda, onun əsas rəqibləri - respublikaçı Valeri Pekress və sağçı Milli Birlik Partiyasının rəhbəri Marin Le Penin reytinqləri artmaqda davam edir. Makron hələ ki, rəsmi olaraq namizədliyini açıqlamasa da, onun seçkiqabağı kampaniyasında əsas diqqəti Aİ daxilində işlərə yönəldəcəyini ehtimal etmək olar.

Dünyanın digər ölkələrində olduğu kimi, Fransada da siyasi elita böhranı var. Partiya sistemi əvvəlki kimi işləmir, siyasətdə yeni simalar getdikcə daha az görünür. Fransa prezidenti seçkilərə qədər ölkədə siyasi mənzərənin necə formalaşacağını görmək və rəqiblərinin proqramlarını nəzərə alaraq hazırlaşmaq üçün gözləmə mövqeyi tutub. Əgər birinci dönəmində Makron daxili böhranların həllinə diqqət yetiribsə, ikinci müddət ona ümumavropa siyasətinə diqqət yetirmək imkanı verəcək.

**V.VƏLİYEV**

***Ukrayna ilə Rusiya arasındakı münasibətlər, bütün dünyanın buna yanaşması, Qərb tərəfindən sərgilənən mövqe elə bütün dünyanı da həqiqətən çox maraqlandırır və hətta ən aktual məsələ olaraq qalmaqdadır. Hər bir halda münasibətlər geosiyasi müstəvidə nələrə isə səbəb olacağı ehtimalı təkzib edilmir və bundan ehtiyatlanıldığı da başadüşüləndir. Ən azından, dünya ölkələrinin öz mövqelərini bildirmələri əbəs yerə deyil və bütün bunlar ona görədir ki, narahatlıqlar hələ də var, hələ də bu anlaşılmazlıqların mövcudluğu xoşagəlməz nəticələrə gətirib çıxara bilər. Ən böyük zərbənin kimə dəyə biləcəyi isə müzakirə mövzusudur və bütün dünyada da daha çox elə bu nəzərə alınır.***

# Ən böyük zərbə kimə dəyə bilər?



Hazırda Ukraynaya "hərbi təcavüz" olunacağı ehtimalı fonunda Qərb "cəhənnəm sanksiyaları" hazırlayır. Məsələ burasındadır ki, bu sanksiyaların tətbiqinin bütövlükdə dünya üçün baha başa gələcəyi bəllidir. Bəllidir ki, sanksiyalar tətbiq ediləcəyi təqdirdə sənaye, ticarət, hətta banklar belə zərər görəcək. O da bir reallıqdır ki, nə qədər alternativlər axtarılırsa belə, hələ də Rusiya qazına alternativ yoxdur. Belə olan halda Avropa İttifaqının belə təhlükəli siyasi oyunlar oynamağa rəvac verəcəyi inandırıcı görünmür. Hər bir halda məsələnin ciddiliyi qəbul edilir və bunun fonunda hansı sanksiyalardan söhbət gedir? O zaman bu sanksiyalar, yaxud da sanksiyaların tətbiqi barədə bəyan edilməsi nəyə lazımdır və nəyə hesablana bilər? Bir halda ki, sanksiyaya görə zərbənin daha çox kimə dəyəcəyi bəllidir, deməli sanksiyaların tətbiqi inandırıcı görünmür.

Rusiyaya qarşı Vaşinqton və Brüssel tərəfindən, SWIFT-i qlobal banklararası rabitə sistemindən ayırmaq, ən böyük kredit təşkilatlarının maliyyə bazarlarına çıxışını bağlamaq və Beynəlxalq Valyuta Fondunun vəsaitlərinə moratorium elan etmək kimi təhdidlər səsləndirilir, özü də ən sərt şəkildə. Hətta, İngiltərə artıq qanunvericilik bazımından zəmin də hazırlayıb. Beləki, hazırlanan qanunvericilyə görə gərginliyin artması fonunda London istənilən şəxsə və şirkətə məhdudiyyət tətbiq edə bilər. Ancaq, gəlin görək, bunun nəticələri nələri vəd edə bilər və bu arzuolunandırmı? Məsələn, Qərb iqtisadçıları xəbərdarlıq edirlər ki, avropalılar bunun məhz Avropa İttifaqı üçün nə ilə nəticələnəcəyini sanki düşünmürlər. Deyək ki, rəsmi Moskvanın qaz tədarükünü azaltmaq qərarına gələ biləcəyi elə bil nəzərə alınmır, amma nəzərə alınmaması doğrudurmu? Sözsüz ki, lazım gələcəyi təqdirdə Rusiya belə bir addımdan da istifadə edə bilər. Elə bu barədə "Financial Times" nəşri də yazır və qeyd olunur ki, Moskvanın çox güclü kozırları var və ondan istifadə etməyəcəyinə heç kimsə zəmanət verə bilməz. Yəni, Moskvanın kozırları güclüdürsə, deməli ən böyük zərbə ən




azından Rusiyaya dəyməyəcək, rəqiblərinə dəyəcək.

Nəzərə almaq lazımdır ki, enerji ilə bağlı asılılıq da hədsiz böyükdür və təbii qazın 46 faizini Rusiya təmin edir. Maraqlıdır, bunun fonunda Avropa sanksiyaların, eləcə də bunun müqabilində Rusiyanın adekvat addımlarının arxasında dura biləcəkmi? Yaxud, deyək ki, tətbiq ediləcəyi bəyan edilən məhdudiyyətlərin, sanksiyaların təsir, ya da təzyiq vasitəsi kimi qəbul edilməsi inandırıcıdırmı? Neftlə bağlı mənzərənin də eyni şəkildə olduğunu nəzərə alsaq, istənilən məhdudiyyətin tətbiqinin nəticə etibarı ilə kimə daha böyük mənfi təsiri göz önünə alınmalıdır. Çünki, bütün bu məhdudiyyətlər birmənalı şəkildə, həm qiymət artımına, həm də yükdaşıma bazarına mənfi təsir göstərəcək, Avropadakı neft emalı zavodlarını təmin edən boru kəmərlərində fasilələrin yaranmasına gətirib çıxaracaq.







Onu da diqqətə çatdıraq ki, son iki ildəki logistika pozğunluqlarının və pandemiya ilə bağlı lokdaunların nəticəsi olaraq, dünya artıq sənaye metallarının kəskin çatışmazlığı ilə üzləşib, hətta xammal böhranı da var. Məhz London birjasında spot müqavilələrin bahalaşması bu səbəbdən təsadüfi sayılmır və treyderlərin malları daha tez əldə etmək üçün böyük mükafat ödəməyə hazır olmaları da əbəs yerə deyil. Vəziyyətin ekstremal olduğu günün reallığıdır və sanki bütün bunlar nəzərə alınmır. Sanki, tələbatın artmasına təklifin ümumiyyətlə cavab vermədiyini görən də yoxdur, əks halda qeyd olunan məhdudiyyətlər, yaxud da hansısa sanksiyalar müzakirə mövzusu belə olmazdı. Rusiya həm də ən böyük alüminium və mis istehsalçısıdır, hansıki dünya bazarının altı faizini alüminiumla, on faizini də misla təmin edir. Nəzərə alsaq ki, əsas əmtəə birjalarında mis ehtiyatları 400 min ton həddindədir, hansıki, bu ehtiyatlar bir həftəyə belə kifayət etmir, alüminium tükənir və bunun nəticəsində Avropa, eləcə də Çindəki metallurgiya zavodları artan enerji xərcləri səbəbindən istehsalını azaldır, deməli buradan da bəlli olur ki, məsələ təkcə enerji ilə də bitmir.

Avtomobil istehsalında lazım olan palladiumun təxminən 40 faizini və aerokosmik sənayedə istifadə olunan titanın təxminən üçdə birini Rusiyanın tədarük etməsi də burada nəzərdən qaçmamalıdır. Ən azından bunların tədarükünün azaldılması, yaxud da dayandırılması ilə bağlı Moskva qərar verə bilər. Təbii ki, sanksiyalar olacağı təqdirdə Avropa iqtisadiyyatına daha bir zərbə Rusiyada neft nəhəngləri olan BP, Total və Shell şirkətlərinin birgə müəssisələrinin məhv edilməsi ilə ola bilər. Bir daha sual yaranır ki, Avropa buna hazırdırmı və ümumiyyətlə, bunun barəsində düşünübmü? Kimin daha böyük zərər görəcəyi bəlli deyilmi? Sözsüz ki, bütün bunlar düşünülür, nəzərə alınır, yaxud nəzərə alınacaq və bunun əksini fikirləşmək sadəlövhlük olardı.

Əlbəttə ki, digər tərəfdən Rusiya üçün dollara çıxışın məhdudlaşdırılması da, bu ölkənin beynəlxalq ödəniş sistemlərindən ayrılması da heç yaxşı nəticələr vəd etmir və avropalı tərəfdaşların da zərər görəcəyi təkzib edilə bilməz. Rusiyanın hüquqi şəxslərinin hesablarında olan böyük məbləğlər dondurulduğu təqdirdə, bankların zərər görəcəyi də gün kimi aydındır. "Financial Times" nəşri yazır ki, Avropa İttifaqının kredit təşkilatlarına Rusiyanın borcu təxminən 60 milyard dollardır və onu da nəzərə almaq lazımdır ki, bu Amerikanın borcundan təxminən dörd dəfə çoxdur. Bir sözlə, Qərbin hər hansı bir qeyri-dost hərəkətlərinin, qərəzinin müqabilində xərclərini azaltmaq üçün fəal tədbirlər görmək imkanına malik olan Moskva ilə müqayisədə Avropa İttifaqı istənilən məhdudiyyətə daha az və çox pis hazırlıqlıdır və bundan daha böyük zərbə alar.

Avropa üçün çox acı olsa da həqiqət ondan ibarətdir ki, Rusiya qazını əvəz edəcək heç bir şey Avropada yoxdur. "BCS Global Markets"-in neft və qaz üzrə analitiki Ronald Smit özü də bu qənaətdədir və bu barədə fikirlərini açıqca bildirib. "Rusiya ilə Ukrayna arasında münaqişə baş verəcəyi təqdirdə, qazın qiymətləri asanlıqla pik nöqtəsinə qalxa bilər", deyə "Capital Economics"in baş iqtisadçısı Endryu Kenningem öz hesablamalarına əsasən əminliklə bəyan edib. Fransanın "Total Energies" şirkətinin rəhbəri Patrik Puyanne isə öz növbəsində deyib ki, indi yalnız Rusiyanın sayəsində kifayət qədər qaz var. Bir sözlə, Avropanın özündə belə analitiklər, iqtisadçılar Rusiyaya qarşı sanksiyanın tətbiqindən yaxşı heç nə gözləmirlər. Əksinə, sanksiya və məhdudiyyətlərlə bağlı nəticənin Avropa üçün daha acınacaqlı olacağı qənaətindədirlər.

Heç amerikalılar da fərqli düşüncədə deyillər, çünki alternativ variant belə təklif etməkdə, yaxud araşdırmaqda, tapmaqda çətinlik çəkirlər. Bunu da açıq-aşkar ifadə edirlər. Amerikalıların özləri də çəkinmədən etiraf edirlər ki, sanksiya və məhdudiyyətlərlə bağlı bütün səylər faydasızdır, eləcə də çox təhlükəlidir. Çünki onlar əmindirlər ki, yaxın 20 il ərzində bütün dünya Rusiya xammalı olmadan heç nə edə də bilməz, dünya buna alternativ də tapmaq iqtidarında deyil. Elə isə, hansı sanksiyalardan söhbət gedə bilər və buna kim razı olar? Bu sanksiyaların fonunda yeni böhranın olacağını anlayanlar hər halda çıxış yolu axtarmalıdırlar, bəlkə də axtarıblar da, hələ tapıblar da. Hər bir halda, sanksiya, məhdudiyyət tətbiqi, təhdid dili ilə danışmağın faydasız olduğu bəllidir və Moskva ilə dialoq qurmaq ən doğru seçim hesab olunur. Yəqin ki, bunu avropalılar hamıdan yaxşı başa düşürlər, çünki ən böyük zərbənin kimə dəyəcəyini onlar hamıdan yaxşı bilirlər.

***İnam Hacıyev***



# Xaricdə təhsil üçün ən çox hansı ölkələrə üstünlük verilir?

AKADEMİYA

***Xaricdə təhsil dedikdə ilk ağıla gələn ölkələr Amerika, Kanada, İngiltərə, Almaniya və son vaxtlar Polşadır. Bu ölkələrdə həm dövlət, həm də özəl universitetlər var. Ərizə tələbləri və formaları da ölkədən ölkəyə dəyişir. Bu ölkələrdə tələbələrin universitet təhsilinə üstünlük verməsinin bir çox səbəbi var. Universitetdə oxuyarkən xaricdə yaşamaq şansının olması da onlardan biridir. Bundan əlavə, dünyanın ən yüksək reytinqlərində olan universitetdə oxumaq birinci yerdədir.***

Xaricdə bakalavr təhsili alacaq tələbələrin ən böyük üstünlüyü bir çox ölkədə imtahan təzyiqi olmadan istədikləri şöbədə təhsil almaq imkanının olmasıdır. Tələbələr maraqlandıqları və istədikləri kafedraya icbari və birdəfəlik imtahanla bağlı deyillər. Onlar öz qiymətləri, ortalama balları, sosial layihələri, könüllülük xidmətləri, təhsil həyatı boyu inkişaf etdirdikləri bacarıqları ilə qəbul oluna bilərlər. Kanadada universitet, İngiltərə universiteti, Amerika universiteti, Avstraliya universiteti, İrlandiya universiteti, Polşa universiteti, Macarıstan universiteti, İsveç universiteti, İsveç universiteti, Estoniya universiteti tələbələrin heç bir universitetə qəbul imtahanına ehtiyac duymur. Danimarka universitetlərinin əksər şöbələri, İspaniya universitetləri, İsveçrə universitetləri, Fransa universitetləri və İtaliyadakı universitet proqramları üçün türk tələbələrin Almaniyadakı universitet proqramları üçün Türkiyədəki universitet imtahanlarında iştirakı məcburidir.



Xaricdə təhsilin ən böyük üstünlüklərindən biri də xarici dili effektiv öyrənməkdir. Bundan əlavə, xaricdə təhsil alan tələbələr getdikləri ölkədə başqa dilləri də öyrənmək imkanı əldə edirlər. Bu vəziyyətdə tələbələr iş və ictimai həyatlarında istifadə edə biləcəkləri dildə mühüm bacarıqlara sahib olurlar.

Tələbələr universitetdə oxuyarkən Türkiyədə olduğu kimi bəzi ölkələrdə hazırlıq proqramından sonra 4 illik universitet təhsili almaq məcburiyyətində deyillər. Bunun əvəzinə tələbələr 3 il müddətində universitet təhsili ala bilərlər. Bu, bir çox tələbə üçün bir seçimdir. Daha sonra tələbələr xaricdə magistr təhsili və ya attestat və ya diplom proqramları ilə universitet təhsillərini davam etdirmək üçün ixtisaslaşmaq imkanı əldə edirlər. Bu onlara iş həyatına digər tələbələrlə müqayisədə 1 il tez və daha peşəkar şəkildə başlamaq imkanı verir. Xaricdəki bəzi universitetlərdə tədris ilinin müxtəlif dövrlərində təhsilə başlamaq mümkündür. Müraciət edəcək tələbənin vaxt itirməsinə mane olan amillərdən biri də budur.

Xaricdə təhsil almaq üçün universitetə gedəcəkləri ölkədə dil biliyi olmayan tələbələr də bir çox ölkələrin təklif etdiyi hazırlıq dili təhsili proqramlarında iştirak edə bilərlər. Xarici dil məktəbləri və ya məktəblərin öz hazırlıq proqramları (təməl və ya yol) dil təhsili vəziyyətinə nəzarət etmək üçün getməli olan proqramlardır.

Xaricdə bakalavr təhsili bir çox ölkədə və proqramlarda adətən 3-4 il çəkir. Amerika və Kanadada 4 illik bakalavr proqramları olduğu halda, Avropada bu müddət ümumiyyətlə 3 ildir. Bəzi mühəndislik şöbələri 4 il çəkə bilər. Bundan əlavə, memarlıq proqramları 5 il, stomatologiya və əczaçılıq şöbələri 5 il, tibb təhsili 6 il davam edə bilər. Amerika və Kanadada tibb təhsili fakültə dəyişikliyinə görə 8 ilə qədər çəkə bilər.

Beynəlxalq tələbələri qəbul edən bəzi universitetlər tələbələrin dil biliyi və məzun ortalamaları istisna olmaqla, onların bəzi kurslarını orta məktəb səviyyəsində almasını gözləyir. Türkiyə liseyi proqramında olmayan bu kursları almaq üçün tələbələr dil təhsili ilə yanaşı akademik məzmunu da təmin edən hazırlıq proqramlarında hazırlana bilərlər. Bəzi tələbələr isə bu vəziyyətdə qalmamaq üçün universitetə daxil olmaq niyyətində olduqları ölkədə orta təhsil alaraq oradan məzun olmağa çalışırlar. Bu yolla onlar yalnız həmin ölkənin tələbələri üçün açıq olan proqramlara müraciət etmək şansı əldə edirlər. Universitet yönümlü orta məktəb təhsili üçün üstünlük verilən proqramlar İngiltərədə orta məktəb, Kanadada orta məktəb və Amerikada orta məktəbdir. Avropa İttifaqı ölkələrində orta məktəb təhsili almaq istəyən tələbələr üçün də imkanlar var.

"Times Higher Education" (THE) 12 il ərzində dünyanın ən yaxşı universitetlərinin reytinqini hazırlayaraq sektorda çox əhəmiyyətli bir yerə sahibdir. İngiltərə universitetləri, Amerika universitetləri və Almaniya universitetləri builki reytinqdə dünyanın ən yaxşı 10 universiteti sırasında yer alıb. Oksford ümumi hesabda 1-ci yerdədir. Kaliforniya Texnologiya Universiteti keçən illə müqayisədə təhsil reytinqində yerini qoruyub:

**1.** Oksford Universiteti
www.ox.ac.uk
**2.** Kaliforniya Texnologiya İnstitutu
(Kaliforniya Texnologiya İnstitut)
www.caltech.edu
**3.** Stenford Universiteti
www.stanford.edu
**4.** Kembric Universiteti
www.cam.ac.uk
**5.** Masaçuset Texnologiya İnstitutu
www.web.mit.edu
**6.** Harvard Universiteti
www.harvard.edu
**7.** Prinston Universiteti
www.princeton.edu
**8.** London İmperator Kolleci
www.imperial.ac.uk
**9.** ETH Sürix - İsveçrə Federal Texnologiya İnstitutu
www.ethz.ch
**10.** Kaliforniya Universiteti, Berkeley
www.berkeley.edu

Xaricdə universitet təhsili üçün qəbul tələbləri ölkədən ölkəyə dəyişir. Bununla belə, ümumi tətbiq olunan şərtlər aşağıdakılardır:

Adekvat Qiymət Balı (Ali Məktəb/ Məzun Ortalama)

Bakalavr təhsilinin alınacağı məktəb tərəfindən müəyyən edilən dil imtahanında (IELTS / TOEFL / DELE / Test DAF və s.) kifayət qədər müvəffəqiyyət göstərmək

Bakalavr təhsilinin alınacağı məktəb tərəfindən müəyyən edilən bacarıq imtahanlarında tələb olunan müvəffəqiyyəti göstərmək üçün (SAT və ya məktəbə aid imtahanlar)

İstinad məktubları

Namizədin CV-si

Namizədin əvvəlki nailiyyətləri, layihələri, mükafatları və müsabiqə nəticələri

Xaricdə bir Universitetdə təhsil almaq istəyən tələbələr, bu təhsil proqramı üçün tələb olunan dil səviyyəsini, qiymət ortalamalarını və ya bacarıq imtahanlarını almadıqları təqdirdə Pathway/Foundation hazırlıq proqramları ilə dünyanın yüzlərlə nüfuzlu universitetinə daxil olmaq hüququ qazana bilərlər.

***Ardı Səh. 12***



Əvvəli-Səh-11

# Xaricdə təhsil üçün ən çox hansı ölkələrə üstünlük verilir?



Xaricdə təhsil alan tələbələrin inkişaf etdirdiyi və gələcək karyeralarına özlərini hazırlamaqda payı olan çox mühüm məqamlar var. Bunlardan birincisi tələbələrin hansı ölkəyə getməsindən asılı olmayaraq təhsil aldıqları dilin xarici dil olmasıdır. Xaricdəki universitetlərdə və xaricdə ümumi təhsildə istifadə olunan modellər və sistemlər Türkiyədəkindən fərqlənir. Tələbə yeni sistemdə interaktiv təhsil alaraq özünü daha yaxşı ifadə etmək imkanı qazanır. Başqa mədəniyyətlərə yaxınlaşan tələbələr eyni dam altında onlarla görüntü toplayıb öz istedadları ilə birləşdirə bilərlər. O, həm həyati, həm də dünyaca məşhur və nüfuzlu universitetlərə daxil olmaq imkanları sayəsində akademik inkişaf üçün çox yaxşı imkanlar yarada bilər. Universitet təhsili üçün müraciət edəcəyi ölkədə orta məktəbi müvəffəqiyyətlə başa vuran və məzun olan tələbələrin universitet təhsilinə keçid zamanı bəzi təhsil təqaüdlərinə müraciət etməsi mümkündür. Bu səbəbdən İngiltərədə orta məktəb proqramları, Kanadada liseylər və Amerikada orta məktəb proqramları çox populyardır.

Universitet təhsili almaq ölkədən ölkəyə xərc öz fərqini göstərir. Bəzi Avropa ölkələrində Avropa İttifaqından diplomların alına bildiyi ali təhsil müəssisələri və universitetlər kiçik ödənişlə 2.000 avrodan başlayır, maksimum ödəniş 5-6.000 avro, bəzi Avropa ölkələrində isə bu ödənişlər 10.000 avro arasındadır.

Eyni şəkildə, Amerika, Kanada, İngiltərə və Avstraliya kimi ölkələrdə xərclər adətən xeyli yüksək olur və tələbələrin təhsil üçün ən azı 20.000 ABŞ dolları, yaşayış üçün isə ildə 10-12.000 ABŞ dolları büdcə ayırması lazım gələ bilər. Ancaq sadə bir hesablama ilə Polşa, Macarıstan, Estoniya, Çexiya və Almaniya kimi münasib qiymətli variantlarda təhsil və yaşayış xərcləri demək olar ki, Türkiyə ilə eyni miqyasdadır. Yenə İsveç, Danimarka və Hollandiya kimi seçimlər Türkiyədəki vəqf universitetlərinin qiymətlərindən çox bahalaşmadan demək olar ki, eyni qiymətə təhsil almaq imkanı olan ölkələr sırasındadır. Xaricdə universitet təhsili düşündüyümüz qədər bahalı deyil.

Universitetə keçid üçün dil məktəblərində və ya akademik hazırlıq proqramlarında iştirak etməli olan tələbələr dil məktəbində təhsil aldıqları müddətdə daha aşağı ödənişlər ödəyə bilərlər. Yol proqramlarının ödənişləri proqramın məzmununa görə dəyişsə də, bəzi hallarda universitet ödənişlərindən yüksək, bəzi hallarda isə universitet ödənişlərindən aşağı ola bilər.

Xaricdə təhsil almaq və xaricdə universitet təhsilinə sərmayə qoymaq həyatda mühüm addımdır. Bu səbəblə oxuduğunuz universitetin akkreditasiyasını və akademik, sosial və şəxsi inkişafınızı nə dərəcədə təmin edəcəyini ölçməli, bunu edərkən büdcənizə və yaşayış şəraitinizə uyğun bir yer seçməlisiniz, çünki siz ilk növbədə sosial həyatınızı və ehtiyaclarınızı ən yaxşı şəkildə təmin etməlisiniz. Qısa bir müddət deyildiyi üçün gələcəyinizə investisiya etmək üçün həyatın çox baha olmadığı, baha başa gəlsə də, daha uzun müddət qalıb məhsuldar ola biləcəyiniz ölkələri seçməlisiniz.

SİA məsələ ilə bağlı araşdırma apararaq təhsil ekspertlərinin, mütəxəssislərin fikirlərini öyrənib.

**Təhsil eksperti Kamran Əsədov:** "İlk növbədə qeyd etmək istəyirəm ki, hal-hazırda xarici ölkələrdə təhsil alan azərbaycanlı tələbələrin sayı 40 minə yaxındır. Onlardan 21 mini qardaş Türkiyədə, 8 mini Ukraynada, 6 mindən çoxu Rusiya, Gürcüstan universitetlərində təhsil alır.

Xarici ölkələrdə təhsil almaq





üçün gedənləri əsasən bir neçə qrupa bölmək olar. Onlardan biri Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında topladıqları ballar burda ali məktəblərə qəbul olmağa imkan verməyənlərdir ki, bunların sayı hədsiz dərəcədə çoxdur. Bu kateqoriyaya aid olan şəxslər daha çox Ukrayna, Rusiya, Dərbənd, Dağıstan, Gürcüstan kimi ərazilərin universitetlərində təhsil almağa üstünlük verirlər. Səbəb isə odur ki, bu universitetlərdə hətta prestijli ixtisaslarda təhsil alsalar belə, qeyri - qanuni yollarla təhsillərini başa vura biləcəklər. Bu ölkələrdə təhsil almağa gedənlərin əksəriyyəti hüquq, maliyyə - iqtisadiyyat kimi ixtisaslara daha çox üstünlük verirlər.

İkinci kateqoriyanı o şəxslər təşkil edir ki, onlar Azərbaycanda ali məktəblərə qəbul olurlar, amma aldıqları təhsil onları qane etmir. Ona görə də daha yüksək səviyyədə təhsil almaq üçün onlar xarici ölkələrə üz tuturlar. Müəyyən şəxlər də var ki, ali təhsil almaq istəyir, amma Azərbaycanda təhsil haqları yüksək olduğu üçün daha ucuz təhsil haqqı olan ölkələrə gedirlər. Bu şəxslər daha çox Türkiyə, Macarıstan, və digər Avropa ölkələrinin univerisutetlərinə üz tuturlar və seçdikləri ixtisaslar tibb, komputer və ya informasiya texnologiyaları, nano texnologiya kimi ixtisaslar olur.

Üçüncü kateqoriyanı isə Azərbaycan Respublikası Prezidentinin 2007-2015-ci illəri əhatə edən Xaricdə Təhsil Dövlət Proqramı çərçivəsində xarici ölkələrdə təhsil almağa gedənlər təşkil edir. Bu proqram çərçivəsində daha çox Azərbaycanlı gənclərin ölkə üçün zəruri ixtisaslar üzrə xaricdə təhsil almalarını və ölkənin inkişafının mühüm amilinə çevrilmələrini təmin etmək məqsədi güdülür. Xaricdə Təhsil proqramı ilə gəncləri daha çox müəyyən edilmiş prioritet ixtisaslar: Beynəlxalq münasibətlər, tibb, baytarlıq, kənd təsərrüfatı, mühəndislik, yüksək texnologiyalar, qədim dillər ixtisasları əhatə edir.

Hal-hazırda ən ciddi problem xarici ölkələrdə təhsil alanların diplomlarının tanınması ilə bağlıdır. Bu bəzi hallarda xarici təhsil xidməti göstərən şirkətlərin şəxsi kommersiya maraqları ucbatından baş verir. Belə ki, lisenziya müddəti bitmiş və akreditasiyası olmayan universitetlərə qəbul həyata keçirilir.

Ona görə də valideyinlər yalnız xaricdə təhsil ilə bağlı mütəxəsislərə müraciət etməlidirlər. valideyinlər bilməlidir ki, övladlarını Türkiyərə qiyabi təhsil almağa göndərirlərsə, onun diploma birmənalı olaraq tanınmayacaq, çünki Türkiyədə qiyabi təhsil yoxdur.

Bundan başqa tələbələr oxumağa getdikləri ölkədə qiyabi təhsil alacaqlarsa azı 15 gün, əyani təhsil alacaqlarsa 90 gün semester ərzində o ölkənin ərazisində olmalıdırlar.

Bundan başqa hər bir xarici ölkəyə oxumağa gedən şəxs eric-naric sistemində o universitetin olub olmamasını yoxlamalıdır. Bunlarla yanaşı xarici ölkələrdə oxumağa gedənlər o ölkənin dilini və tədris dilini bilmirlər ki, bu da sonradan onların diplomlarının tanınması zamanı maneəyə səbəb olur".



**Təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi:** "Azərbaycandan xaricə təhsil üçün üz tutulan ölkələr daha çox Türkiyədir. Daha sonra isə Avropa ölkələridir. Tələbələrimiz xaricdə təhsilini davam etdirmək üçün daha çox bu istiqamətdə addım atırlar. Türkiyəyə atestatla qəbul daha asan olduğu üçün buraya üz tutanların sayı çoxluq təşkil edir. Avropa ölkələrindən isə daha çox üz tutulan ölkə Macarıstan, Belçikadır. Eyni zamanda, magistratura təhsili üçün Almaniya, Avstriyaya, Danimarkaya üz tutanlar da az deyil. Türkiyə ilə Ukrayna paraleldir. Çünki hər ikisində atestatla təhsil mümkündür.

Onu da qeyd edim ki, Təxminən 21 minə yaxın Türkiyədə, 4700 nəfərə yaxın da Ukraynada təhsil alan tələbələrimiz var".

SİA araşdırma mövzusu ilə bağlı xaricə sənəd vermək istəyən tələbələrin fikirlərini də öyrənib:

**Tələbə Şahanə Paşayeva:** "Ən çox Avropa ölkələrinə üstünlük verilir. Əsasən də Polşa, İtaliya və Estoniya. Polşa yaşayış və universitet xərcləri cəhətdən sərfəlidir. İtaliyada isə təqaüd imkanları genişdir. Amma viza cəhətdən İtaliya çox çətinlik törədir. Mən özüm Almaniyada təhsil almaq istəyirəm. Çünki, xarici ölkələrin təhsil sistemi məni daha çox qane edir, həm də yeni mədəniyyətləri və ölkələri kəşf etməyi sevirəm. Təhsilimi jurnalistika sahəsində davam etdirməyi düşünürəm".

**Tələbə Bəhram Nadirov:** "Daha çox ABŞ, Almaniya, Böyük Britaniya ölkələrinə üstünlük verirəm. Oxumaq istədiyim ölkə ABŞ-dır. Öz sahəm üzrə oxumağı daha uyğun hesab edirəm. Amma başqa ixtisas üzrə də oxumaq olar. Həmçinin xaricdə təhsil almaq bizim tələbələrə daha çox təcrübə və bilik qazandırır. Xarici ölkələrdə təhsil sistemi bizim təhsil sisteminə nisbətən daha bəsitdir ( istisna ölkələr vardır). Həm də daha keyfiyyətli və daha əyləncəli bir təcrübə və bilik toplayırsınız. Bununla yanaşı bizim universitetlərdən fərqli olaraq xaricdə olan bir çox tələbələr universiteti bitirdikdən sonra işləmək üçün şərait yaradır. Amma bizdə bu inkişaf çox bərbad vəziyyətdədir".

**Tələbə Mikayıl Quluzadə:** "Xaricdə təhsil almaq bir tələbə üçün yenilik, dünyagörüşü, həm də təhsili daha dərindən peşəkar səviyyədə öyrənmək üçün şansdır. Təhsilimi xaricdə davam etdirmək istəsəm Almaniya, Kanada, Amerikanı seçərdim. Əsasən təhsilimi İT üzrə davam etdirmək istəyirəm".

***Ayşən Vəli***

# Türkiyə-İsrail münasibətləri normallaşarsa...

## Regionda bir sıra müsbət dəyişikliklər yarana bilər



Məlum olduğu kimi, mart ayında İsrail prezidenti İshaq Hersoqun Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğanla görüşü keçiriləcək. Belə ki, The Jerusalem Post nəşrinin yazdığına görə, İsrail hətta bu ərəfələrdə HƏMAS təşkilatının Türkiyə ərazisində, əsasən, İstambulda fəaliyyət göstərdiyi qrupları barədə də əvvəllər olduğu kimi etirazlı şərtlər irəli sürmür. "Bizdə hər hansı bir şərtlər yoxdur. Təbii ki, münasibətlərin qurulması üçün biz bir-birimizə güzəştlərə gedəcəyik. Biz artıq görürük ki, Türkiyə ərazisində təhdid yaradan terror təhlükələrinə qarşı mübarizəsini gücləndirib", deyə adıçəkilən İsrail nəşrinə açıqlama verən israilli mənbə qeyd edib və onu bildirib ki, İsrail bu məsələdə kifayət qədər ehtiyatla irəliyə doğru getməkdədir.

### İsrailin baş naziri Alon Uşpiz: "Biz irəliyə doğru çox yavaş və mərhələlərlə gedirik"

Bu xəbər eyni zamanda, Türkiyənin yüksək rütbəli dövlət məmurlarının İsrailə səfərləri ərəfəsində yayılıb. Belə ki, Türkiyənin nümayəndə heyətini xarici işlər nazirinin müavini Sedat Onal və prezident Ərdoğanın müşaviri və mətbuat katibi İbarahim Kalın təmsil ediblər.

Dekabr ayında isə İsrailin XİN rəhbəri Alon Uşpiz Türkiyədə səfərdə olub və prezident Hersoqun bu ölkəyə səfərinin detallarını müzakirə edib. Fevral ayının əvvəlində isə İsrailin baş naziri Naftali Bennet bəyan edib ki, Ərdoğanın yaxınlaşma təşəbbüsünə müsbət və ehtiyatla yanaşır. "Biz irəliyə doğru çox yavaş və mərhələlərlə gedirik", deyə Bennet əlavə edib və bildirib ki, Hersoqun Ankaraya səfəri məhz onunla koordinasiya edilməkdədir.

### Ankara İsrailin Afina və Nikosiya ilə isti münasibətlərinə etiraz etmir

İsrailli mənbələr dəqiqləşdiriblər ki, Ankara ilə münasibətlərin normallaşdırılması prosesinə başlanılması İsrailin Yunanıstanla, Kipirlə münasibətlərinə xələl vurmur. Maraqlıdır ki, Ərdoğanla görüşündən əvvəl Hersoqun Afinada və Nikosiyada olacağı da məlumdur.

Türkiyə lideri isə hələ ötən ildən İsraillə münasibətlərin yaxşılaşdırılması ətrafında bəyanatlar səsləndirməyə başlayıb. Türkiyə siyasətinin dəyişdirilməsi eyni zamanda iqtisadi çətinliklər, ölkənin diplomatik izoləsi və s. məsələlərlə bağlıdır ki, Ərdoğan bütün bunları həll etməyə çalışır, üstəlik, İsraillə münasibətlərin normallaşdırılmasında BƏƏ-nin də vasitəçiliyi rol oynayır.

### Köhnə müttəfiqlərin yenidən masa arxasına oturaraq bir araya gəlmələri regional yöndə aparılan siyasət baxımından müsbət dəyişikliklərə səbəb olacaq

Ötən ay Türkiyənin xarici işlər nazirliyi fələstinlilərin İsrailin dövlət ərazilərində yaşayış məntəqələri və sənaye mərkəzləri açmalarına qarşı görülən tədbirlərə, onların həmin ərazilərdən çıxarılmalarına qarşı tənqidi fikirlər səsləndirmişdi. O cümlədən, Qüdsdə (Yerusəlimdə) yerləşən Əl-Əqsa məscidi ilə bağlı prolblemlərin yaradılmasına qarşı Türkiyənin Dini İşlər üzrə idarəsi də etirazını bəyan etmişdi.

Xatırladaq ki, İsraillə Türkiyənin ümnasibətləri 2008-ci ildə pisləşmişdi. Həmin vaxt İsrailin baş naziri Yehud Olmert Ərdoğanla görüşündən bir neçə gün sonra fələstinlilərə qarşı əməliyyatın keçirilməsi qərarını verdi. Gərginlik həddi isə 2010-cu ildə bir qədər qədər yüksəldi. Onda İnsani Humanitar Yardım (İHH) "Mavi Marmara" gəmisini Qəzza zolağına göndərərək blokadanı yarmaq istədi. Lakin İsrailin müdafiə ordusu gəmini dayandırdı və göstərilən müqavimətdə 9 nəfər insan həlak oldu. Bu insidentdən sonra İsrail və Türkiyə diplomatik əlaqələrini tam şəkildə pozmadılar, hətta 2016-cı ildə səfirlərini də təyin etdilər. Lakin iki ildən sonra İsrailin müdafiə nazirliyinin Qəzza zolağında baş verən etirazlara sərt reaksiya göstərdiyinə görə Ankara israilli səfiri öz ölkəsinə göndərdi.

İndi isə vəziyyət sabitləşməyə doğru inkişaf edir və köhnə müttəfiqlərin yenidən masa arxasına oturaraq bir araya gəlmələri həm regional yöndə müsbət dəyişikliklərə səbəb olacaq, həm də hər iki ölkənin təhlükəsizliklərinin birgə təmin etmələri şəraiti münbit hala gələcək. Bu baxımdan, istər Türkiyədə, istərsə də İsraildə münasibətlərin normallaşdırılması istiqamətində atılan addımlara isti baxılmaqdadır.

*Rövşən RƏSULOV*

# "5-ci kalon" yenə də iş başındadır



"Çox maraqlı bir tarixi dövr yaşayırıq. Belə ki, mütəxəssislər diqqətlə araşdırsalar görərlər ki, bütün dövrlərdə Azərbaycan polisi dövlətin aliliyini qoruyub. Bu məqsədlə hüquq-mühafizə orqanları ölkəmizdə olan "5-ci kalon"nun təmsilçilərini və ya onların yaxınlarını qanunsuz əməllərinə görə məsuliyyətə cəlb edəndə, dərhal həmin "5-ci kalon" təmsilçiləri hərəkətə keçərək polisi təxribata sürükləməyə çalışırlar". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Ramiz Alıyev bildirib.

O qeyd edib ki, bu hallar "5-ci kalon"un fəaliyyət göstərdiyi bir çox ölkələrdə baş verən xüsusi taktikasıdır: "Diqqət etsəniz, özünüz də görə bilərsiniz ki, sanki "arı pətəyinə" oxşayan bu şəbəkə onlara yaxın gedən hər kəsi sancmağa və "pətək"dən uzaq tutmağa çalışırlar. Bəs bu cür təxribatları etməyə və Azərbaycan polisini təxribata çəkməklə onlara qarşı nifrət yaratmaqda məqsəd nədir?! Bu suallara cavabı tapmaq üçün xüsusi bir istedad tələb olunumur. Belə ki, hər kəs çox gözəl bilir və müşahidə edir ki, Azərbaycan polisi ölkəmizdə sabitliyi təmin edərək vətəndaşlarımızın rahat yaşamasını, dövlətimizin təhlükəsizliyini qorumaqla müstəqilliyimizə qarşı olan bütün təxribatların qarşısını ən yüksək səviyyədə almış olur. Çox uzağa getmədən nümunə göstərə bilərik ki, istər 2003-cü ildə, istər 2005-ci ildə dövlətimizə qarşı yönəlmiş olan təxribatları Azərbaycan polisi necə qətiyyətlə almışdır. Eyni zamanda Vətən müharibəsi zamanı ölkəmizdə sabitliyin qorunmasını ən yüksək formada təmin etməsi, pandemiya zamanı göstərmiş olduqları xidmət onların vəzifə borcu olmağı ilə yanaşı, həm də bir doğmalıq nümayişi idi.

Dünyanın inkişaf etmiş ölkələri ilə müqayisə aparərkən müşahidə edə bilərik ki, ölkəmiz yaşamaq üçün necə sabit və təhlükəsiz ölkədir. Ona görə ki, Azərbaycanda ictimai asayişin qorunması birbaşa ölkə başçısının nəzarətindədir və ictimai asayişin sabit olmasına qarant cənab Prezidentdir. Bəs bu ictimai asayişin pozulmasına, vətəndaşlarımızın qorxu içində yaşamasına, polisə olan inamın məhv olmasına çalışanlar kimlərdir?".

Ramiz Alıyevin fikrincə ictimai asayişin pozulmasına çalışanlar "5-ci kalon" və onun əlaltılarıdır: "Bütün dövrlərdə biz müşahidə edirik ki, həmin şəbəkənin müəyyən üzvləri ifşa olunanda və onları qanun qarşısında cavab verməyə dəvət edəndə, Azərbaycan dövlətinə və dövlətimizin müstəqilliyini qoruyan polis əməkdaşlarına qarşı planlaşdırılmış formada hərəkətə keçib istər sosial şəbəkələrdə, istərsə də ictimai yerlərdə qarayaxma kampaniyası aparırlar. Ancaq təəssüflər olsun ki, bizim vətəndaşlarlarımızın böyük əksəriyyəti bu cür təşkilatlanmış şəbəkə üzvlərinin əsil maraqlarının nədən ibarət olmasını görə bilmirlər. Bəli, bu gün ölkəmizdə "5-ci kalon" üzvlərinin və onların xəyanətinə köməkçi olanların məsuliyyətə cəlb olunması prosesi davam etməlidir, dövlətimizə qarşı kimlərin hansı formada xəyanət etməsindən asılı olmayaq məsuliyyətə cəlb olunmalıdır! Bugünlərdə 3-4 nəfər TIR sürücüsünün etmiş olduğu qanun pozuntularına görə polis idarəsinə aparılması və orada onlara qanunlarımızın başa salınmasından şou düzəldən və ya düzəltdirən "şəbəkə" üzvləri düşünməsin ki, Azərbaycan xalqı və dövlətimiz onların əməllərindən xəbərsizdir! Bu adamların "uşaqlıq" etdiyi xüsusi xidmət orqanlarının dövlətlərində qanunsuz aksiya keçirənlərin üzərinə atları sürür, itlərlə qorxuzur, rezin dəyənəklərlə döyür sonra da polis idarələrinə apararaq ağır cəzalar verirlər".

*Abutel İlhamqızı*

# Bakıda insan alverinə qarşı mübarizə mövzusunda dəyirmi masa keçirilib



Hüquqi və Demokratik İslahatlar Mərkəzi İctimai Birliyinin Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə keçirdiyi "İnsan alverinə qarşı mübarizədə vətəndaş həmrəyliyinin artırılması" layihəsi çərçivəsində növbəti tədbir Bakı şəhərində keçirilib.

SİA xəbər verir ki, jurnalistlərin, sosioloqların və ictimai fəalların iştirak etdiyi "İnsan alverinə qarşı mübarizədə gənclərin rolunun artırılması" adlı dəyirmi masada çıxış edən layihənin rəhbəri, HDİM sədri İlham Əliyev bildirib ki, dövlət insan hüquq və azadlıqları sahəsində ardıcıl tədbirlər görüb, qanunlar qəbul edib, islahatlar aparsa da bu sahədə ağrılı problemlər hələ də qalmaqdadır: "İnsan hüquq və azadlıqları üçün qara ləkə olan insan alveri cinayətlərinin mövcudluğu ağrılı problemlərdən hesab olunur. Hazırkı dövrdə bu sahədə dünyada münbit şəraitin yaranması cinayətkar qrupların diqqətini cəlb edib və bu da Azərbaycan ailə dəyərlərinə, ənənələrinə ziddi olan insan alverinin daha da aktuallaşması ilə nəticələnib. Bu səbəbdən də təşkilatımız bu sahədə əlindən gələni etməyə çalışır ki, bu problemin həlinə öz töhfəmizi verə bilək".

Sağlam Cəmiyyət Hərəkatının eksperti, sosioloq-jurnalist Elçin Bayramlı isə, problemin yaranmasının səbəblərinə toxunub. Ekspert deyib ki, insan alverinin qurbanları əsasən iş adı ilə aldadılıb xaricə aparılanlar üstünlük təşkil edir: "Xüsusilə də, qadınları iş və ya evlilik adı ilə xarici ölkələrə aparıb, cinsi istismara məruz qoyurlar. Belə şəbəkələr əsasən yoxsul, işsiz insanlar kateqoriyasına üz tutur, sosial şəbəkələrdə onları cəlbedici vədlərlə tora salır. Bundan başqa, həmin şəbəkələrin kişi üzvləri qadınları ailə qurmaq adı ilə aldadır, onları xarici ölkəyə aparıb orada cinsi istismara məruz qoyur".

"Səs" Tv-nin baş redaktoru Cabir Məmmədov qeyd edib ki, bu sahədə maarifləndirməyə və belə hallarla mübarizəyə böyük ehtiyac var. O, bildirib ki, insan alveri dünyanın ən böyük problemlərindən biridir və bu problemin həllində həm dövlət, həm cəmiyyət, həm də ictimai təşkilatlar və media birgə və fəal işləməlidir.

Problemin digər tərəfinə, sahibsiz uşaqların istismarına toxunan Beynəlxalq Əlillər Cəmiyyətinin (BƏC) sədri Tahir Xuduyev qeyd etdi ki, bu hallara qarşı biz bir vətəndaş olaraq biganə qalmamalıyıq: "Bir çox hallarda uşaqların dilləndirilməsi faktlarına rast gəlirik, elə hallarla rastlaşdıqda mütləq müvafiq orqanlara xəbər verməliyik. Həmin uşaqlara pul verməklə biz onların dilləndirilməsi üçün stimul yaradırıq. Əgər heç kim uşaqlara pul verməsə həmin cinayətkar şəbəkə onları dilləndirməyin faydalı olmadığını görüb bu işdən çəkə bilərlər".

AzTv-nin əməkdaşı Zərifşan Ağayeva insan alveri ilə bağlı faktların əsasən gənclərə çatdırılmasının, onların bu cinayətkar şəbəkənin tələsinə düşməməsi üçün kifayət qədər məlumatlı olmasının bu hallarla mübarizədə əsas rol oynadığını deyib. Dəyirmi masada elmi və ictimai təşkilatların nümayəndələri Xatirə Cabbarzadə (AMEA), Nəzakət Bayramova (müəllimə), Nizami Əfəndiyev (BƏC), Qismət İsmayılov (HDİM-in eksperti), Vəli Vəliyev (SİA-nın icraçı direktoru), Davud Mahmudzadə (idmançı), Zümrüd Bayramova (jurnalist), Murad Mahmudov (Səs Tv), Nemət İsmayılov (tələbə) və başqaları da çıxış edib mövzu ilə bağlı fikirlərini bildiriblər.

*Lalə Mehralı*

***"1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri SSRİ dövründə Xankəndi şəhərində yerləşdirilmiş 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalı şəhərində dəhşətli qırğın törətdilər. Bu vəhşilik nəticəsində son yüz ilin ən dəhşətli soyqırımlarından biri törədildi, 613 nəfər dinc insan-uşaqlar, qadınlar, qocalar vəhşicəsinə öldürüldülər. Lakin onların qanı yerdə qalmadı". Bunu "Səs" qəzetinə açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.***




# "Xocalı soyqırımının tanınması Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindəndir"

Onun sözlərinə görə, Azərbaycanın möhtəşəm qələbəsi ilə başa çatan ikinci Qarabağ müharibəsində qətlə yetirilən günahsız insanların intiqamı qəhrəman ordumuz tərəfindən alındı: "Erməni faşist ordusu darmadağın edildi, döyüş meydanında minlərlə ölü hərbçi buraxan düşmənlərimiz tarixlərinin ən dəhşətli məğlubiyyətini yaşadılar. Azərbaycan bu soyqırımın dünyada tanıdılması istiqamətində məqsədyönlü iş aparır. Hazırda Xocalı soyqırımının tanınması Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Məhz bu fəaliyyətin nəticəsində Xocalı qırğınını tam səviyyədə soyqırım kimi Pakistan və Sudan tanıyır. Faciəni parlament səviyyəsində qətliam kimi Meksika, Kolumbiya, Çexiya, Bosniya və Herseqovina, Cibuti, Peru, Honduras, Panama, İordaniya, Rumıniya və Şotlandiya tanıyır. İndiyədək ABŞ-ın 22 ştatı Xocalını qətliam kimi tanıyan sənəd qəbul edib. Ancaq bu nəticələr bizi arxayınlaşdırmamalıdır. Fəaliyyətimizi daha da gücləndirməli və digər dünya dövlətlərinin bu soyqırımı tanıması üçün əlimizdən gələni etməliyik".

***Gülyana***

# Qarabağ erməniləri beynəlxalq qaçqın statusu almaq istəsələr də...

## *Ermənistan hakimiyyəti onların tələblərini rədd edir - səbəbi isə bəllidir*

***Qarabağ erməniləri İrəvanın mərkəzi meydanında mitinq keçirməklə "beynəlxalq qaçqın" kimi qeydə alınmalarını tələb edirlər və üstəlik, onu da tələb edirlər ki, onlara heç də material kömək lazım deyil, əksinə, Ermənistan hakimiyyəti qaçqın olduqlarına görə onlara biznes-kreditlər verməlidir.***







Bu da son deyil. Mitinq keçirən ermənilər Ermənistan hökumətindən qondarma "DQR"in tanınmasını da tələb edirlər. Maraqlıdır, son 30 ildə qondarma qurumu tanımayan Ermənistan 44 günlük müharibədən sonra həmin qərarı verməklə özünü birdəfəlik məhv etmək qərarına gələ bilərmi? Təbii ki, yox!





### Ermənistan bu cür əlavə xərcləri də üzərinə götürsə, ümumiyyətlə, bir dövlət kimi xəritədə qalmaq şansını itirəcək

Lakin göründüyü kimi, mövcud vəziyyət və yaranmış situasiya bir sıra nəticələrə gəlməyə zəmin yaradır. Daha dəqiq desək, Qarabağ ermənilərinin məqsədləri başqadır. Belə ki, "qaçqın statusu" almaq onların qızıl xəyallarıdır. Ancaq başqa tərəfdən, İrəvan heç vaxt və əsla onlara bu rahatlığı təqdim etməyəcək. Çünki bu gün Ermənistan hakimiyyəti də yaxşı bilir və dərk edir ki, yaxın vaxtlarda BMT-nin xüsusi qiymətləndirmə komissiyası Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər edərək həmin torpaqların işğal altında olduğu 30 ilə yaxın müddətdə hansı dağıntılara məruz qaldığını hesablayacaq. Bir sıra mənbələr həmin rəqəmin 100 milyard və daha çox olacağını bildirirlər və Ermənistan bu və ya digər şəkillərdə həmin vəsaiti Azərbaycana ödəməli olacaq. Bu baxımdan, İrəvan bütün bunları yaxşı bilir və onu da anlayır ki, heç bir iqtisadi və s. imkanları olmayan Ermənistan bu cür əlavə xərcləri də üzərinə götürsə, ümumiyyətlə, bir dövlət kimi xəritədə qalmaq şansını itirəcək.

Həmçinin, fakt budur ki, hazırda Ermənistanı on minlərlə insan tərk edir və belə bir demoqrafik sarsıntının qarşısında aciz qalan Ermənistanın Qarabağdan gələn qaçqınlara ayrıca status verməsi onların da ölkəni tərk etmələri ilə nəticələnəcək. Çünki qarabağlı ermənilərə beynəlxalq qaçqın statusu da məhz ona görə lazımdır ki, dərhal Fransaya, Belçikaya, Hollandiyaya, ABŞ-a və s. Qərb ölkələrinə üz tutarkən problemlər yaşamasınlar.

**Qarabağdan Ermənistana getmiş ermənilər bundan sonra hələ çox müddət havadan asılı halda qalmalı olacaqlar**

İrəvan həm də ona ümid edir və xəyallara dalır ki, guya o, Qarabağla bağlı "status" məsələsini gündəmdə saxlamağa və həmin erməniləri prosesə cəlb etməyə müvəffəq olacaq və s. Yəni Ermənistan hakimiyyəti belə düşünür ki, Qarabağ ermənilərinə beynəlxalq qaçqın statusunu verərsə, sonradan onları geri qaytara bilməyəcək. Lakin əvvəlcədən məlumdur ki, Bakı öz qətiyyətli sözünü deyib və heç Qarabağla bağlı heç bir status müzakirə mövzusuna çevrilə bilməz və çevrilməyəcək də! Azərbaycan üçün bu mövzu birdəfəlik qapanıb, ona görə də Qarabağdan Ermənistana getmiş ermənilər bundan sonra hələ çox müddət havadan asılı halda qalmalı olacaqlar. Sadəcə, bu, ermənilərin yeganə və gələcək müqəddəratlarını müsbət yöndə həll edə biləcək çıxış yolları mövcuddur - bu, Azərbaycan vətəndaşı olmaq statusudur. Ancaq onların bu imkandan da istifadə edəcəkləri inandırıcı görünmür. Ona görə də Ermənistanda mitinq keçirməklə "beynəlxalq qaçqın statusu" adını alacaqlarını düşünürlər. İrəvan isə göründüyü kimi, onların həmin tələblərini rədd edir.

***Rövşən RƏSULOV***

ANALİTİK

***Qarabağdakı separatçılar başlarını qaldırırlar. 2020-ci ilin payızında baş vermiş İkinci Qarabağ Müharibəsi nəticəsində Azərbaycanın əvvəllər işğal olunmuş ərazilərinin böyük hissəsi Bakının nəzarətinə keçib, qalan 30 faizə yaxın ərazilərə isə vəziyyəti izləmək və atəşkəs rejiminə riayət etmək və Ermənistan və Azərbaycan arasında toqquşmaların baş verməməsi üçün Rusiya sülhməramlı missiyası nəzarət edir.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# "Separatçılar Qarabağdan çıxarılmalıdır, çünki sülh prosesini pozurlar"

Bu günlərdə məlum olub ki, separatçılar Qarabağda yaşayanlara "döyüş hazırlığı" keçəcək. Qondarma "Dağlıq Qarabağ Respublikası"nın parlamenti beynəlxalq hüquq normalarından və istənilən məntiqdən yan keçərək, ərazilərin Azərbaycan tərəfindən işğalına dair qanun layihəsini 1-ci oxunuşda qəbul edib. Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci il noyabrın 9-da əldə etdikləri razılaşmalara görə, bütün erməni silahlı birləşmələri Qarabağdan çıxarılmalıdır. Lakin onlar hələ də Qarabağın Bakının nəzarətində olmayan hissəsində qalırlar, burada vaxtaşırı Azərbaycan silahlı qüvvələrinə qarşı təxribatlar və təxribatlar təşkil edilir. Separatçıların bu addımları nə dərəcədə təhlükəlidir və sülh prosesinə mənfi təsir göstərə bilərmi? Ekspert Aleksey Naumovun fikirlərini oxucularımıza təqdim edirik.



**Rusiya Beynəlxalq Əlaqələr Şurasının eksperti Aleksey Naumov:**

- Rusiya sülhməramlılarının vəzifəsi sülhü qorumaq və müharibənin qarşısını almaqdır. Onun missiyasına Azərbaycanla Ermənistan arasında birbaşa siyasi dialoqun qurulması, siyasi qüvvələrin vasitəçiliyi daxil deyil. Dialoq siyasətçilərin və təbii ki, Rusiyanın vəzifəsidir. Eyni zamanda, hesab edirəm ki, özünü "DQR "parlamenti" elan etmiş şəxslərin hərəkətləri real nəticələrə gətirib çıxarmayacağından, separatçılar danışıqlarda tərəflərdən biri olmadığından, bu hərəkətlərin normal olduğunu deyə bilmərik, bu sülhə mənfi təsir edir, hər cür silahlı qarşıdurmaya səbəb ola bilər.

Təbii ki, onlar dinc dialoqun qurulmasına töhfə vermirlər, amma burada deyə bilərik ki, yaxşı, necə olur, müxtəlif insanlar toplaşır, hansısa qərarlar qəbul edirlər. Amma nə qədər ki, açıq qarşıdurmalar yoxdur, biz ən azı Rusiya sülhməramlı kontingentinin tapşırığını yerinə yetirdiyini söyləyə bilərik. Biz başa düşürük ki, belə bir sülh bütöv ola bilməz, tam hüquqlu ola bilməz, o zaman ki, bir ölkə və bu halda Ermənistandır, özünü alçaldılmış, məhv edilmiş hiss edir. Deməli, belə impulslar var... Belə olan halda barışığa doğru atılan real addımlar fonunda istənilən bəyanatı qəbul edə bilir, öz qürurlarını istədikləri kimi saxlaya bilirlər, əsas odur ki, real sakitləşmək üçün Azərbaycan və Rusiya ilə razılaşmaları yerinə yetirsinlər.

Hesab edirəm ki, rabitə, nəqliyyat və iqtisadi sahənin qurulması istənilən bəyanatdan qat-qat vacibdir. Hesab edirəm ki, bu məntiqdən çıxış edərək belə hərəkətlərə yol verilir. Axı, əslində onlar heç nə demək deyil və heç bir gücə malik deyillər. Axı bu separatçı birləşməni heç kim, hətta Ermənistanın özünü də tanımırdı.

Separatçıların hər cür "döyüş hazırlığı"nı da sezmək mümkündür. Ermənistan cəmiyyətinin revanşist təfəkkürlü hissəsi, eləcə də qondarma "DQR"də yaşayan cəmiyyət şübhəsiz ki, icazə verilənin sərhədlərini tapmağa çalışır, bütün mümkün vasitələrlə hansısa xəyali imkan dəhlizini qoruyub saxlamağa çalışır. Bu "dəhliz" illüziyadır, çünki biz başa düşürük ki, hər hansı qisas ehtimalı faktiki olaraq aradan qaldırılır, çünki Rusiyanın sülhməramlı missiyası, Rusiyanın vasitəçilik rolu müharibənin qarşısının alınması və bu münaqişəni həll etməyə çalışmaqdır. Bunun asan olacağını heç kim gözləmirdi, bu, uzunmüddətli prosesdir və sülhməramlıların mandatının beşillik dövrə hesablanması da əbəs yerə deyil. Gəlin görək bir-iki ildən sonra nə baş verəcək.

Hələlik kommunikasiyaların qurulması məsələsi hər hansı təxribatçı bəyanatlardan qat-qat vacibdir. Əslində, mən Azərbaycanla Ermənistan arasında münasibətlərin tənzimlənməsində və yaxşılaşmasında müsbət dinamika görürəm. Paşinyan siyasətlə bağlı çox şey deyə bilər, amma əslində, gördüyümüz kimi, o, sülh prosesinin bərqərar olması üçün lazım olanı edir və bütün erməni siyasətçilərindən daha çox edir.

Nikol Paşinyan, məlum oldu ki, hiyləgər və hətta ağıllı siyasətçidir, əsas məqsədlərdən birini- hakimiyyəti saxlamaq niyyətindədir. Və bu gün o, ən ardıcıl şəkildə sakitləşmənin, Azərbaycanla dialoqun qurulmasının, Türkiyə ilə dialoqun qurulmasının, kommunikasiyaların bərpasının tərəfdarıdır. İstənilən revanşizm həmişə ölkədə iqtisadi artımla məğlub olur, yəni Ermənistanla Azərbaycan arasında münasibətlərin bərpası Ermənistan Respublikasında iqtisadi artıma səbəb ola bilər. Belə olan halda Nikol Paşinyanın populyarlığı bütün rekordları qıracaq və ona rəqib qalmayacaq.

Amma biz başa düşürük ki, Ermənistanda rəqabətli, kifayət qədər demokratik siyasi mühitdə siyasi məqsədlərə çatmaq üçün çox vaxt populist bəyanatlar vermək, populist addımlar atmaq lazımdır. Eyni zamanda, mən əminəm ki, Paşinyan indiki vəzifəsinin nə olduğunu anlayır, Azərbaycan və Türkiyə ilə dialoqun qurulmasının Ermənistanın özünün və erməni xalqının maraqlarına uyğun olduğunu başa düşür və ümid edirəm ki, o, bu yolla davam edəcək.

Hesab etmirəm ki, Nikol Paşinyanın separatçılar üzərində tam gücü var. Erməni demokratik mühitində çoxlu güc mərkəzləri, çoxlu təsir mərkəzləri, qərar qəbuletmə mərkəzləri var. Nikol Paşinyan güclü, savadlı, hiyləgər siyasətçi olsa da, yenə də fərdi siyasət apara bilmir, "Ermənistan mənəm" deyə bilmir. Ermənistan təbii ki, siyasi xadimlərlə daha zəngin cəmiyyətdir. Bütün bunların fonunda Paşinyanın dəstəyə ehtiyacı var- Ermənistanın regional siyasi və iqtisadi əlaqələrə reinteqrasiyasının ən adekvat, ən ardıcıl tərəfdarı kimi.

Eyni zamanda, mənə elə gəlir ki, ermənidaxili ideologiya məsələsi, təbii ki, erməni xalqının məsələsidir. Biz burada məsləhət verə bilmərik, bu ölkənin cəmiyyətinə nə lazımdır, nə lazım deyil. Bu seçimi özü etməlidir. Başa düşürük ki, erməni xalqı xeyli faciəli hadisələrə dözüb və faciələr yaşayan insanlar radikallaşır. Onda millətçilik ideologiyasının rolu artır.

İndi biz bunu hətta İsrailin timsalında da görürük. 20-ci əsrdə dəhşətli fəlakətə məruz qalan xalq indi əsasən radikal, millətçidir. Ermənistanın timsalında biz görürük ki, radikalizm xoşbəxtliyə, daha yaxşı həyata aparmır. Və buna görə də çıxış yolu tarixi tarix kimi buraxmaqdır, tarixi fantomlardan imtina etmək lazımdır ki, bu da bugünkü vəziyyətin yaxşılaşmasına gətirib çıxaracaq. Biz görürük ki, bir çox erməni xadimləri Rusiya haqqında mənfi fikirlər səsləndirir, görürük ki, ümumiyyətlə, Ermənistan cəmiyyəti hətta İkinci Qarabağ müharibəsi zamanı da Rusiya Federasiyasına qarşı hörmətsiz danışır, tarixi incikliklər yada salır. Və bu nəyə gətirib çıxardı?

Mənə elə gəlir ki, millətçiliyin özündə heç bir qəbahət yoxdur, əgər o, öz mədəniyyətinə, öz ölkəsinə sevgidən ibarətdirsə. Başqa bir şey, radikal siyasi millətçilik ona gətirib çıxarırsa ki, bir ideya naminə, keçmişdən gələn ideyalar naminə indi yaşayan insanlar əziyyət çəkirlər, onda bu pisdir. Düşünürəm ki, Qarabağ müharibəsində dəhşətli, dağıdıcı məğlubiyyətdən sonra yenidən Nikol Paşinyanı seçən Ermənistan cəmiyyəti bununla da bəyan etdi ki, bəli, biz qürurlu xalqıq, amma bizə sülh lazımdır, bizə fantom yox, inteqrasiya lazımdır, sülh lazımdır, ticarət lazımdır, yaxşı və daha da yaxşı yaşamaq lazımdır. Və ona görə də hesab edirəm ki, erməni cəmiyyətinə səciyyəvi olan millətçiliyə rəğmən, ümid edirəm ki, o, bunu sərištəli siyasi inkişafla, həm Rusiya ilə, həm də Azərbaycan, Türkiyə ilə səriştəli münasibətlərlə birləşdirə və bunu özünün və bütün bölgənin xeyrinə edə bilər.

Separatçılar ətrafında yaranmış vəziyyətlə bağlı hesab edirəm ki, Azərbaycan sabit, sərt diplomatik kursu saxlamalıdır. Müharibədə qalib gəldi və heç kim bu faktı şübhə altına almır. Azərbaycan əvvəllər işğal etdiyi torpaqlarının böyük hissəsini geri qaytarıb. Və həqiqətən də bu gün o, Ermənistanla əməkdaşlıq etmək üçün vahid diplomatik cəbhə saxlayır.

Rusiya təbii ki, sülhməramlı kimi, Azərbaycanla Ermənistan arasında bağlanmış sazişlərin həyata keçirilməsinin təminatçısı kimi hər iki tərəflə dialoqu davam etdirir. Və bu dialoq kifayət qədər uğurludur. İkinci Qarabağ müharibəsi başa çatandan sonrakı vəziyyətə və indiki vəziyyətə nəzər salsanız, bu gün əlbəttə ki, son qərardan uzaq olsa da, sülhə çox yaxındır. Ancaq buna baxmayaraq, mən hesab edirəm ki, Rusiya üçün hər iki tərəfə qarşı neytrallığın və hörmətini qoruyub saxlamaq, yavaş-yavaş, çətinliklərlə, amma şübhəsiz ki, sülhə doğru çalışması son dərəcə vacibdir.

Əminəm ki, Rusiyanın sülhməramlı mandatı başa çatdıqdan sonra, 5 il başa çatandan sonra biz vəziyyətin ya sülhlə yekunlaşacağını, yəni bizim istədiyimiz kimi olacağını, ya da sülhə daha da yaxın olacağını görəcəyik. Fikrimcə, bütövlükdə bu gün dinamika müsbətdir, qarşıdurmalara, tez-tez verilən bəzi bəyanatlara baxmayaraq, təbii ki, bunlar xoşa gəlməyə bilər, ümumi sülh prosesinə xələl gətirə bilər, lakin bu revanşistlərin sülh yolu ilə həll tərəfdarları ilə döyüşündə sülh tərəfdarları qalib gəlir və bu, daha çox Rusiyanın təsiri ilə bağlıdır.

Heç kimə lazım olmayan, Ermənistan və Azərbaycan cəmiyyətlərinin ən döyüşkən hissələrinin istəklərinə baxmayaraq, vəziyyətin dağıdıcı nəticələrə gətirib çıxaracaq yeni müharibəyə doğru sürüşməməsinin əsas təminatçısı Rusiyadır. Biz başa düşürük ki, bu müharibə həm Ermənistan, həm də Azərbaycan üçün faciə ola bilər. Münaqişənin hazırkı həlli vəziyyəti sabitləşdirdi-birincisi, bu, Azərbaycana öz torpaqlarını qaytarmağa imkan verdi, ikincisi, Azərbaycan beynəlxalq münasibətlərdə özünü çox müdrik iştirakçı kimi göstərdi. O, böyük hərbi üstünlüyə malik olmaqla, rəqibini sonadək əzmədi və onu əzab-əziyyətə məhkum etmədi, bölgəni əhəmiyyətli bir qaçqın böhranına, erməni əhalisinin böhranına məhkum etmədi.

Əminəm ki, Qarabağın qalan ərazisi üzərində nəzarəti Azərbaycanın qaytarması qaçılmazdır, gec-tez baş verəcək. O, torpaqlarını diplomatiya yolu ilə qaytaracaq. Təbii ki, bütün tərəflər bunun hamı üçün, o cümlədən hazırda orada yaşayanlar, oradan getmək istəyənlər, Azərbaycan vətəndaşlığını qəbul edib tamamilə Azərbaycanın nəzarətində olacaq ərazidə yaşamaq istəyənlər üçün ən sakit, ən dinc, rahat şəraitdə baş verməsində maraqlıdır. Biz başa düşürük ki, bu, bu vəziyyətdən ən arzulunan və ümumiyyətlə, yeganə mümkün çıxış yoludur. Çünki orada artıq müharibə mümkün deyil, Rusiya bunun qarantıdır. Moskvanın ABŞ-la, Avropa ilə münasibətlərində problemlər ola bilər. Amma Cənubi Qafqazda xarici şərtlər nə olursa olsun, Rusiya öz rolundan geri çəkilməyəcək. Məhz buna görə də Rusiyanın sülhməramlılığı əhəmiyyətli sabitləşmə, sakitləşdirmə və arxayınlaşma amilidir.

*Tərcümə - Elçin Bayramlı*

# İngilis həkim: mədə xərçəngi gec mərhələdə aşkarlanır



*Britaniyalı həkim Sancay Mehta mədə xərçənginin bəzi əlamətlərinin erkən görünə biləcəyini və bununla da xəstəliyin daha tez diaqnoz qoyulmasına imkan verdiyini bildirib. SİA-nın əldə etdiyi məlumata görə, bu barədə "Express" qəzeti xəbər verib.*

O qeyd edib ki, çox vaxt mədə xərçəngi gec mərhələdə aşkarlanır, çünki onun ilk əlamətləri qeyri-müəyyən olub və insan onları başqa xəstəliklərlə qarışdıra bilər. S.Mehta bu mümkün əlamətlər arasında mədə yanması, həzmsizlik, iştahda dəyişikliklər, o cümlədən az miqdarda yeməkdən sonra toxluq hissi, ürəkbulanma və qusma kimi halları sadalayıb.

Mütəxəssis xəbərdarlıq edib ki, erkən aşkar olunan xərçəng mədədə qanaxmaya səbəb ola bilər, nəticədə qırmızı qan hüceyrələrinin sayı azalır və xəstəlik anemiya şəklində özünü göstərir. Bu qan analizini verəndə müəyyən edilir.



# Formula 1 Azərbaycan Qran Prisi üçün biletlərin qiyməti AÇIQLANDI

***Bakı Şəhər Halqası (BŞH) 2022-ci il Formula 1 Azərbaycan Qran Prisi üçün bilet satışına start verir. BŞH-dan SİA-ya verilən məlumata görə, 10-12 iyun 2022-ci il tarixlərində keçiriləcək Formula 1 Azərbaycan Qran Prisi üçün bilet satışına fevral ayının 22-dən etibarən start verilir.***

Yarışlar üçün nəzərdə tutulan biletlərin qiyməti yerli azarkeşlərə birgünlük ayaqüstü zonada 90 - 160 AZN, üç günlük tribuna biletləri 280 - 970 AZN, uşaqlar üçün (16 yaşadək) isə 190 - 690 AZN aralığında dəyişir. Bundan əlavə, hər il olduğu kimi, bu il Paddok klubu və xüsusi korporativ yerlər üçün bilet satışı da nəzərdə tutulub.

# 3 nəfərin ölümü ilə nəticələnən dəhşətli qəzanın görüntüləri

*Sumqayıtda 3 nəfərin ölümü ilə nəticələnən yol qəzası ilə bağlı cinayət işi açılıb, hadisə anının görüntüləri yayılıb. Bu barədə SİA-ya Baş Dövlət Yol Polisi İdarəsindən (BDYPİ) məlumat verilib.*

Bildirilib ki, ötən gün təxminən saat 17:17 radələrində Bakı-Quba-Dağıstan sərhədi avtomobil yolunun Sumqayıt şəhəri H.Z.Tağıyev qəsəbəsi ərazisindən keçən 43-cü km-də Bakı şəhər sakini 1985-ci il təvəllüdlü Əliyev Seymur Fikrət oğlu "Mercedes-Benz E320" markalı, 90-TF-497 dövlət qeydiyyat nişanlı avtomobillə Quba rayonu istiqamətində hərəkətdə olarkən idarəetməni itirib və metal konstruksiyalı arakəsməyə dəyərək avtomobili aşırıb.

Qəza nəticəsində sürücü S.Əliyev və sərnişinləri - həyat yoldaşı 1999-cu il təvəllüdlü Ələkbərova Fidan Mövsüm qızı və övladı 2021-ci il təvəllüdlü Əliyev Həmzə Seymur oğlu ölüblər.



Qeyd edək ki, yol-nəqliyyat hadisəsi zamanı həyatını itirən şəxslər həmin gün Qusar rayonunda dəm qazından zəhərlənərək ölən 5 nəfərdən ibarət ailənin yaxın qohumlarıdır və məlum səbəbə görə rayon istiqamətində tələsik yola düşüblər. İlkin ehtimala görə, avtomobil yolda müəyyən olunmuş sürət həddindən yüksək sürətlə idarə edilib, eyni zamanda yol örtüyünün həmin hissəsi nahamar (dalğavari) olduğundan sürücü idarəetməni itirib və qəzanın qarşısını almaq mümkün olmayıb. Onlar heç biri təhlükəsizlik kəmərini bağlamayıb və hadisə nəticəsində avtomobildən kənara atılıblar ki, bu da həyatlarına son qoyub.

Bir daha hərəkət iştirakçılarından xahiş edirik ki, yolda müəyyən edilmiş sürət həddinə riayət etsinlər və mütləq təhlükəsizlik kəmərini bağlasınlar.

Faktla bağlı Cinayət Məcəlləsinin 263.3-cü maddəsi ilə cinayət işi başlanılıb, araşdırma aparılır.

# 102 yaşlı bu xanım prezident olmaq istəyir

*Nonye Josefina Ezeanyaeçe adlı 102 yaşlı nigeriyalı qadın ölkədə 2023-ci ilin fevralında keçiriləcək prezident seçkilərində namizədliyini irəli sürəcəyini açıqlayıb. SİA-nın əldə etdiyi məlumata görə, o, bunu Nigeriya televiziyasına müsahibəsi zamanı deyib.*



Ezeanyaeçe prezident seçilərsə ölkəsilə bağlı yaxşı planlarının olduğunu bildirib.

Qeyd edək ki, uzunömürlü xanım Nigeriyada "Yaşayan əfsanə" və "Afrikanın anası" kimi tanınır. O, "Nigeriyanın yaşlı vətəndaşların səsi" təşkilatının yaradıcısıdır.

# Ov edən şəxs cəzalandırılıb

**Qızılağac Milli Parkının əməkdaşları tərəfindən keçirilən nəzarət tədbirləri zamanı milli parkın ərazisində ov edən şəxs saxlanılıb. Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəsmisi Arzu Səmədova bildirib ki, araşdırma zamanı qanun pozucusunun Masallı rayon sakini Elmidar Orucov olduğu müəyyən edilib. "Faktla bağlı təqsirkar şəxs barəsində qanunamüvafiq tədbirlər görülüb".**



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**